**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN SOVET ƏDƏBİYYATINDA İDEOLOJİ DÜŞMƏN OBRAZLARI VƏ TARİXİ HƏQİQƏT (1920-1960-CI İLLƏR)

İxtisas: 5716.01-Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Nuranə Firudin qızı Əsədullayeva**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Rafael Baba oğlu Hüseynov** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Teymur Həşim oğlu Kərimli** |
| | filologiya elmləri doktoru, professor **Cəlil Qərib oğlu Nağıyev** |
| | filologiya elmləri doktoru, professor **Bədirxan Balaca oğlu Əhmədov** |
| | filologiya elmləri doktoru, dosent **Leyla Kamran qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya elmləri üzrə fəlsəfə doktoru **İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor **Abuzər Musa oğlu Bağırov** |

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr Azərbaycan ədəbiyyatının 1920-1960-cı illər mərhələsinin araşdırılması çağdaş ədəbiyyatşünaslığın əsas məsələlərindən biridir. Müstəqillik dövrünün yaratdığı yeni tarixi gerçəklik fonunda bu dövrün ədəbiyyatını dəyərləndirmək, onun keçdiyi yola nəzər salmaq, yaradılan obrazlara, ümumiyyətlə həyata ideoloji yanaşma probleminə obyektiv münasibət bildirmək aktuallıq kəsb edir. Belə ki, təxminən yarım əsrlik bir dövrdə ədəbiyyat ideoloji təzyiq altında olmuş, onun inkişaf etməsi üçün müəyyən qərarlar qəbul edilmiş, inzibati göstərişlər verilmişdir. Bu səbəbdən ədəbiyyat öz əvvəlki təbii yolundan dönmüş, süni inkişafa məhkum edilmiş, bir çox hallarda ideoloji sistemin ruporuna çevrilərək tarixi həqiqətin təhrifinə yol açmışdır.

Bu dövrdə ədəbiyyat ən çox obrazların ideoloji qiymətləndirilməsindən və tarixi gerçəkliyin düzgün əks etdirilməməsindən əziyyət çəkmişdir. Bir müddət ədəbiyyatda bəy, xan, inqilabçı, komsomol, kolxozçu, qolçomaq, sinfi düşmən, zərərçi, ziyançı, kommunist, böhtançı, molla, müsavatçı, xalq düşməni, türkçü, pantürkist obrazları yaradılmış və onlar birtərəfli şəkildə reallığa uyğun olmayaraq, sxematikliyi ilə bir-birinə bənzəyərək eyni xətt üzrə təsvir edilmişdir.

Dövrü hərtərəfli öyrənmək üçün bu dövrdə yazılmış əsərlərin tədqiqi mövzunu aktual və əhəmiyyətli edən ən mühüm məsələlərdən biridir. Obrazların necə təsvir olunması öz mahiyyətini dəyişmir, lakin müsbət, mənfi, qolçomaq, bəy, xan və s. obrazları yeni kontekstdə oxumaq və dəyərləndirmək baxımından həmin əsərləri yenidən tədqiq etmək lazım gəlir. Bu cür araşdırma dövrün ədəbiyyatını yenidən saf-çürük etməyə imkan verdiyi kimi, ədəbiyyata olan yanlış münasibəti də aradan qaldırmış olur.

Problemin aktuallığını şərtləndirən cəhətlərdən biri də hər bir onillikdə ideologiyanın ədəbiyyata müdaxiləsinin müxtəlif təzahürlərini araşdırmaq, ədəbiyyatşünaslığımızda mübahisə predmeti olan məsələlərə münasibət bildirməkdir. Sovet cəmiyyəti və onun ədəbiyyata olan münasibəti göstərdi ki, ədəbiyyatı qərar və

qətnamələrlə inkişaf etdirmək mümkün deyildir. Belə ki, bu cür inzibati göstərişlərə əsaslanan əsərlərin ömrü də çox zaman həmin ideologiyanın ömrü qədər olur.

Sovet dövrünün ədəbiyyatşünaslığı bədii nümunələrin dəyərləndirilməsinə çox zaman ideoloji mövqedən yanaşır və ya mövcud ideoloji sistemə gərək olan məsələləri qabardır, şairin, yazıçının və ya dramaturqun gizli məqsədlərini açmağı lazım bilmirdi. Bu gün belə əsərləri milli ədəbiyyatşünaslıq təfəkkürü işığında təhlil etmək və yenidən dəyərləndirmək lazım gəlir. Bununla biz əvvəlki dövrlərdə bu əsərlərə verilən qiymətlərin, təhlillərin əhəmiyyətini qətiyyən azaltmırıq, çağdaş milli-ədəbi tarixi prosesin mövqeyini ifadə edirik. Dövrün ədəbiyyatşünaslığının özünün də təqibə, təzyiqə və repressiyaya məruz qaldığını yada salsaq, ideoloji təzyiqin eyni dərəcədə ədəbiyyatşünaslığın da üzərində olduğunu görmək mümkündür.

Problemin işlənmə dərəcəsinə gəldikdə, demək lazımdır ki, mövzuya konkret elmi tədqiqat işi səviyyəsində münasibət bildirilməmişdir. 1920-1950-ci illərdə bu məsələyə ədəbi tənqid bir neçə dəfə müraciət etsə də, bu dəyərləndirmələr ideoloji istiqamətdə olmuşdur. Əli Nazim (1906–1941), Bəkir Çobanzadə (1893–1937), Əmin Abid (1898–1937), Hənəfi Zeynallı (1896–1938), Hidayət Əfəndiyev (1908–1979), Mehdi Hüseyn (1909–1965), Əli Hüseynzadə (1906–1982), Mustafa Quliyev (1893–1938) və başqa tənqidçilərin məqalələrinin bir çoxunda əsərlərə ideoloji cəhətdən qiymət verilmişdir. Ə.Abidin “Zərərli tənqidlər”[1], B.Çobanzadənin “Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə”[2], H.Əfəndiyevin “Nəsrimiz yüksəliş yollarında”[3], “Pereverzev və onun ədəbiyyat sistemi haqqında”[4], M.Quliyevin

---

[1] Abid, Ə. Zərərli tənqidlər // – Bakı: İnqilab və mədəniyyət, – 1929. № 10, – s. 31-34

[2] Çobanzadə, B. Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə / B.Çobanzadə. – Bakı: ADETİ-nin nəşriyyatı, – 1930. – 65 s.

[3] Əfəndiyev, H. Nəsrimiz yüksəliş yollarında /H.Əfəndiyev. – Bakı: Azərnəşr, – 1936. – 150 s.

[4] Əfəndiyev, H. Pereverzev və onun ədəbiyyat sistemi haqqında // – Bakı: Hücum, – 1931. № 2, – s. 2-6.

"Ədəbiyyatşünaslqda burjua təmayülləri əleyhinə"[5], "Oktyabr və türk ədəbiyyatı"[6], "Türk ədəbiyyatında pilnyakçılığı dəf edəcəyiz"[7], Ə.Nazimin "Simürgün yaradıcılıq yolu"[8], "Azərbaycanda marksizm tənqidində mexanisizm və liberal görüşlər əleyhinə"[9], "Türk ədəbiyyatşünaslığında pantürkizm və kamalizm əleyhinə" (A.Musaxanlı, Ə.Abid, B.Çobanzadə, M.F.Köprülüzadə və İ.Hikmətin ədəbi görüşləri haqqında)[10], M.Hüseynin "Ədəbi döyüşlər"[11],"Ədəbiyyatımızın bolşevik partiyalılığı uğrunda"[12], "Azərbaycan sovet ədəbiyyatının yaradıcılıq problemləri"[13], "Yaradıcılıq məsələləri ətrafında"[14] və s. məqalə və kitablarında bu və ya digər dərəcədə ideoloji yanaşmalar mövcud olmuşdur, bu yanaşmalar dövrün münasibəti baxımından olduqca əhəmiyyətlidir. Üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildində[15], iki

---

[5] Quliyev, M. Ədəbiyyatşünaslqda burjua təmayülləri əleyhinə / M.Quliyev. – Bakı: Azərnəşr, – 1931. – 121 s.

[6] Кулиев, М. Октябрь и тюркская литература / М. Кулиев. – Баку: Аз. ГНИИ, – 1930. – 156 с.

[7] Quliyev, M. Türk ədəbiyyatında pilnyakçılığı dəf edəcəyiz // Kommunist. – 1929, 4 noyabr, – s.1.

[8] Nazim, Ə. Simürgün yaradıcılıq yolu // – Bakı: İnqilab və mədəniyyət, – 1933. №3, – s. 31-34.

[9] Nazim, Ə. Azərbaycanda marksizm tənqidində mexanisizm və liberal görüşlər əleyhinə (I məqalə) // – Bakı: Hücum, – 1932. №3-4, – s. 37-41; Nazim, Ə. Azərbaycanda marksizm tənqidində mexanisizm və liberal görüşlər əleyhinə (II məqalə) // – Bakı: Hücum, – 1932. №5-6, – s. 37-41.

[10] Nazim, Ə. Türk ədəbiyyatşünaslığında pantürkizm və kamalizm əleyhinə (I məqalə) // – Bakı: İnqilab və mədəniyyət, – 1931. №3-4, – s. 59-62; Nazim, Ə. Türk ədəbiyyatşünaslığında pantürkizm və kamalizm əleyhinə (II məqalə) // – Bakı: İnqilab və mədəniyyət, – 1931. №5, – s. 27-31.

[11] Hüseyn, M. Ədəbi döyüşlər / M.Hüseyn. – Bakı: Azərnəşr, – 1932. – 128 s.

[12] Hüseyn, M. Ədəbiyyatımızın bolşevik partiyalılığı uğrunda // Ədəbiyyat. – 1948, 28 avqust. – s. 3.

[13] Hüseyn, M. Azərbaycan sovet ədəbiyyatının yaradıcılıq problemləri (I məqalə) // Ədəbiyyat, – 1948, 25 iyun, – s. 1.

[14] Hüseyn, M. Yaradıcılıq məsələləri ətrafında // Kommunist. – 1929, 21 sentyabr. – s. 4.

[15] Azərbaycan ədəbiyyatı tarixi: [3 clddə] / Bakı: Azərbaycan SSR EA nəşriyyatı, – c.3. –1957, – 563 s.

cildlik “Azərbaycan sovet ədəbiyyatı tarixi”[16] kitablarının hər iki cildində də məsələyə dövrün ideoloji prizmasından baxılır.

Sonrakı ədəbiyyatşünaslar Məmməd Arif (1904–1975), Həmid Araslı (1909–1983), Məmmədcəfər Cəfərov (1909–1992), Pənah Xəlilov (1925–2019), Seyfulla Əsədullayev (1924–2011), Qulu Xəlilov (1930–1995) və başqalarının tənqidi yazılarında da ideoloji meyil az da olsa, nəzərə çarpmaqdadır. Mövzu M.Arifin “Cəfər Cabbarlının yaradıcılıq yolu”[17], “Dirilən adam” haqqında[18] (Mir Cəlalın “Dirilən adam” romanı haqqında), M.Cəfərin “Hüseyn Cavid”[19], Nizaməddin Babayevin (Şəmsizadə, 1954–2025) “Ədəbi mübahisələr”[20], Yaqub İsmayılovun (1928–2015) “İlyas Əfəndiyevin yaradıcılıq yolu”[21], “Əbülhəsənin yaradıcılığı”[22] və s. tədqiqatlarında bu və ya digər şəkildə öz əksini tapır.

Problemə ən kəskin münasibət yaxın otuz ildə ortaya çıxmışdır. Sovet siyasi sisteminin süqutundan sonra həmin dövrün tarixi hadisələri ilə yanaşı, ədəbi, bədii materialına da kəskin münasibət ifadə olunmuşdur. Bu hadisələr əsasən sovet cəmiyyəti dağıldıqdan dərhal sonra baş vermişdir. 1920-30-cu illərdə klassik ədəbi, mədəni hadisələrə mənfi münasibət sərgiləndiyi kimi, 90-cı illərdə də eyni hadisələr təkrarlanmışdır. 1920-ci illərdə Nizami, Füzuli, Vaqifə olan münasibət, müstəqillik dövrünün ilk illərində sovet yazıçılarına qarşı davam etmişdir. Lakin zaman keçdikcə hadisələrə siyasi prizmadan deyil, ədəbi dəyərləndirmələrdən çıxış edərək yanaşılmağa başlanmışdır.

---

[16] Azərbaycan sovet ədəbiyyatı tarixi: [2 cilddə] / Bakı: Azərbaycan SSR EA nəşriyyatı. – c.1. – 1967. – 638 s.; Azərbaycan sovet ədəbiyyatı tarixi: [2 cilddə] / Bakı: Azərbaycan SSR EA nəşriyyatı. – c.2. – 1967. – 501 s.

[17] Arif, M. Cəfər Cabbarlının yaradıcılıq yolu / M.Arif. – Bakı: ADU-nun nəşriyyatı, – 1956. – 351 s.

[18] Arif, M. “Dirilən adam” haqqında // Ədəbiyyat. – 1939, 11 may. – s. 3

[19] Cəfər, M. Hüseyn Cavid / M.Cəfər. – Bakı: Azərnəşr, –1960. – 262 s.

[20] Babayev, N. Ədəbi mübahisələr. Azərbaycan sovet ədəbiyyatşünaslığının təşəkkülü / N.Babayev. – Bakı: Yazıçı, – 1986. – 177 s.

[21] İsmayılov, Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu / Y.İsmayılov. – Bakı: Elm, – 1991. – 262 s.

[22] İsmayılov, Y. Əbülhəsənin yaradıcılığı / Y.İsmayılov. – Bakı: Elm, – 1986. – 208 s.

Problemə ayrı-ayrı mətbuat orqanlarında publisistik səviyyədə və ya müsahibələrdə müxtəlif münasibətlər bildirilməsinə baxmayaraq, elmi-nəzəri münasibətə çox az rast gəlirik. Bununla belə, həmin dövrün ədəbi prosesi və onun inkişaf yolu, ədəbi cəmiyyətlər, repressiya və s. məsələlərlə bağlı aparılan tədqiqatlarda problemin ayrı-ayrı məsələlərinə bu və ya digər şəkildə münasibət də ifadə olunmuşdur. Mövzu Rafael Hüseynovun (1954) "Rəfibəylilər"[23], "Millətin zərrəsi"[24], "Əbədi Cavid"[25], Nizaməddin Şəmsizadənin "Azərbaycan ədəbiyyatşünaslığı: mərhələlər və konsepsiyalar"[26], Qızqayıt Babayevanın "Mustafa Qiliyev. Taleyi və irsi"[27], Nazif Qəhrəmanlının (1949–2012) "Azərbaycanda ədəbi cəmiyyətlər (1920-1930-cu illər)"[28], Bədirxan Əhmədovun (1955) "XX yüzil Azərbaycan ədəbiyyatı, Mərhələlər, istiqamətlər, problemlər"[29], "Ədəbiyyat və repressiya: xarakteri, genezisi və yanaşma meyilləri"[30] və s. məqalə və tədqiqatlarında bu və ya digər şəkildə araşdırılmışdır. Müstəqillik dövründə Şamil Salmanovun (1933– 2006) "Ədəbiyyatşünaslıq və yeni təfəkkür: Tənqid: keçdiyimiz yollar"[31], Elçinin (1943) "Sosrealizm bizə nə verdi?"[32] kimi nəzəri araşdırmalarında problemə nəzəri istiqamətdə münasibət bildirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin əsas araşdırma obyekti XX əsrin 20-60-cı illərinin ədəbi prosesinin

---

23 Hüseynov, R. Rəfibəylilər / R.Hüseynov. – Bakı: Azərbaycan, – 1996. – 672 s.

24 Hüseynov, R. Millətin zərrəsi / R.Hüseynov. – Bakı: Azərbaycan, – 2001. – 720 s.

25 Hüseynov, R. Əbədi Cavid / R.Hüseynov. – Bakı: Nurlan, – 2007. – 840 s.

26 Şəmsizadə, N. Azərbaycan ədəbiyyatşünaslığı: mərhələlər və konsepsiyalar / N.Şəmsizadə. – Bakı: Ozan, – 1997. – 290 s.

27 Babayeva, Q. Mustafa Quliyev (taleyi və irsi) / Q.Babayeva. – Bakı: Ozan, – 1999. – 136 s.

28 Qəhrəmanlı. N. Azərbaycanda ədəbi cəmiyyətlər (1920-30-cu illər) / N.Qəhrəmanlı. – Bakı: Elm, – 2006. – 124 s.

29 Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. – Bakı: Elm və təhsil, – 2015. – 552 s.

30 Əhmədov, B. Ədəbiyyat və repressiya; xarakteri, genezisi və yanaşma meyilləri // – Bakı: Azərbaycan, – 2012. №3, – s.176-186.

31 Salmanov, Ş. Ədəbiyyatşünaslıq və yeni təfəkkür: Tənqid: keçdiyimiz yollar // – Bakı: Azərbaycan, – 1990. №3, – s. 173-179.

32 Elçin. Sosrealizm bizə nə verdi? / Elçin. – Bakı: Mütərcim, – 2010. – 76 s.

inkişaf yolundakı ideoloji maneələrin araşdırılmasıdır. Bu dövrün ədəbi prosesində baş verən hadisələr, həmçinin yaranan ədəbi əsərlərdəki obrazlar və konfliktlərin tədqiqi də dissertasiya işinin obyektini təşkil edir.

Tədqiqatın predmeti dövrün ədəbiyyatının ayrı-ayrı nümunələrinə (poeziya, nəsr, dramaturgiya və ədəbiyyatşünaslıq) istinad edərək hər hansı bir şair, yazıçı, yaxud dramaturqun, eyni zamanda ədəbiyyatşünasın yaradıcılığındakı ideoloji istiqaməti və ya "düşmən obrazları"nı qabardıb ona ideoloji cəhətdən yanaşma deyil, bu cür yanaşmaların obyektiv və subyektiv səbəblərini üzə çıxarmaq və qiymətləndirməkdən ibarətdir. Bu baxımdan dövrün ədəbi prosesini əhatə edən əsas bədii nümunələr, elmi-nəzəri məqalələr, eləcə də ədəbiyyatşünaslıq materialları tədqiqata cəlb edilib, ideoloji düşmən obrazı və tarixi həqiqət problemi bir çox şair, yazıçı, dramaturq və ədəbiyyatşünasların yaradıcılığı əsasında araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 1920-ci illərdən başlayaraq 60-cı illərə qədərki sosialist realizmi çətiri altında yaranan ədəbiyyatın inkişaf istiqamətlərindəki ideoloji rolu üzə çıxarmaq, obrazların yaradılmasında və dəyərləndirilməsində dövrün izlərini təhlil etməkdir. Ədəbiyyatın 1920-60-cı illər sosialist realizmi məcrasında inkişafındakı ziddiyyət və mürəkkəbliyə, eyni zamanda yeni obraz axtarışlarının çətinliklərlə üzləşməsi məsələsinə çağdaş ədəbiyyatşünaslıq baxımından yanaşmaq lazım gəlir. Məqsəd həm onilliklərdə, həm də siyasi ideologiyanın müxtəlif dövrlərində ədəbiyyatın idarə edilməsi zamanı ortaya çıxan ideoloji meyilləri üzə çıxarmaq, ədəbiyyatın inkişafına mane olan amillərin, inzibati resursların zaman-zaman bədii düşüncəyə müdaxiləsinin forma və məzmununu aydınlaşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– XX əsrin əvvəllərindən təbii inkişaf yolu keçən ədəbiyyatın yeni bir reallıqla, siyasi-tarixi proseslə qarşılaşmasının səbəblərinin ortaya çıxarılması;

– Bədii düşüncənin "inqilabi ədəbiyyat", "qolçomaq ədəbiyyatı", "proletar ədəbiyyatı", "fəhlə-kəndli ədəbiyyatı", "sovet

ədəbiyyatı" adı ilə keçdiyi inkişaf yoluna yeni baxışın ifadə edilməsi;

– Obrazların yaradılmasında cəmiyyətdəki qarşıdurmaların öz təsirini göstərməsi və obrazların sinfi mövqeyinə görə bölünməsindəki ideoloji meyillərin yenidən dəyərləndirilməsi;

– Sosialist realizmi metodu kontekstində yaranan ədəbiyyata dövrün ədəbi tənqidinin ideoloji yanaşma meyillərinin müəyyən edilməsi və qiymətləndirilməsi;

– Bəy, xan, inqilabçı, fəhlə, kəndli, qolçomaq, sinfi düşmən, xalq düşməni, böhtançı və s. obrazların ideoloji sistemdən qaynaqlanmasının müəyyənləşdirilməsi;

– 1941-1945-ci illər müharibə dövrü və ondan sonra ədəbiyyata yeni meyarlarla yanaşma zamanı yeni ideoloji meyillərin ortaya çıxmasının ictimai-siyasi səbəblərinin müəyyənləşdirilməsi;

– 1950-ci illərdən sonra obrazların daha çox mənfi-müsbət qütblərə bölünməsi və dəyərləndirilməsinin səbəblərinin aydınlaşdırılması;

– Azərbaycan ədəbiyyatının sovet dövrü konsepsiyasının işlənib hazırlanmasında ideoloji obrazlara münasibətdə yeni yanaşmanın təmin edilməsi və s.

**Tədqiqatın metodları.** Sovet dövründə sosialist realizmi metodu çərçivəsində yaranan ədəbiyyata münasibətdə bu gün bəzi yanlış metodoloji yanaşmalar mövcuddur. Bu metodoloji səhvlərin əsasında tədqiq olunan dövrün özünün mürəkkəbliyi və ziddiyyətliliyi durur. Obyektiv təhlil və tənqid bu ədəbi prosesə və ədəbiyyatdakı meyillərə tarixi-xronoloji, analitik-tipoloji və ideya-estetik təhlil üsulu ilə yanaşmanı tələb edir. Yeni yanaşmanın metodoloji cəhətdən qüsurlu və birtərəfli çıxmaması üçün bədii mətnə münasibətdə tarixilik və müasirlik prinsipləri əsas götürülməli və elmi obyektivliyə üstünlük verilməlidir. Tədqiqat zamanı XX əsrin 20-60-cı illər ədəbiyyatının əsas inkişaf meyilləri nəzərə alınmış, bədii konfliktlərə, sinfi mənsubiyyətindən asılı olmayaraq obrazların təhlilinə çağdaş ədəbiyyatşünaslıq mövqeyindən yanaşılmışdır. Bu təhlillər zamanı müqayisəli metodla yanaşı, tarixi-tipoloji təhlil metodundan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada

təxminən yarım əsrlik bir dövrün ədəbiyyatı müxtəlif problemlər baxımından tədqiqata cəlb edilir. Bu dövrün incəsənəti əsasən "sosialist realizmi" metodunun təsiri altında yaradılsa da, ədəbiyyatın inkişaf yolu birxətli olmamış, ideoloji baxımdan tez-tez dəyişmiş, obrazlara münasibətdə müxtəlif və ziddiyyətli yanaşmalar ortaya qoyulmuşdur. XX əsrin 20-ci illərinin ədəbiyyata, bədii əsərin konfliktinə və obrazlara münasibəti ilə 30, 40, 50, 60-cı illərinin yanaşmasını eyniləşdirmək, onları vahid prinsip əsasında təhlil etmək doğru elmi qənaətlərə gəlməyə əsas vermir. Tədqiqat işində müdafiəyə çıxarılan müddəalarda bu prinsiplər də gözlənilmişdir. Bunları nəzərə alaraq, dövrün ədəbiyyatında aşağıdakı müddəaları müdafiəyə çıxarmağı məqsədəuyğun hesab edirik:

– XX əsrin 20-60-cı illərində ədəbiyyat yeni tarixi şəraitdə, fərqli ictimai-siyasi sistem daxilində inkişaf etdiyindən yeni ideoloji meyillərin güclənməsini müşahidə edirik;

– Ədəbiyyatın həyatı və cəmiyyəti ideoloji yöndə təsvirində yeni meyarların müəyyənləşdirilməsi vacibdir;

– Sovet dövründə ideoloji düşmən obrazlarının yaranmasının tarixi-siyasi və mədəni-sosial əsasları təhlil olunan əsərlərin qələmə alındığı zaman və ünvanlandığı sosial mühitin tələbləri çərçivəsində müəyyənləşdirilməlidir;

– XX əsrin 20-60-cı illərində yaranan ədəbiyyatda obrazların sinfi düşmən (bəy, xan, nökər, kəndli, fəhlə, qolçomaq, xalq düşməni, müsavatçı, əksinqilabçı, daxili düşmən, xarici düşmən və s.) kateqoriyasına bölünməsi və surətlərin təhlilinin bu istiqamətdə aparılmasının ideoloji əsasları vardır;

– XX əsrin 20-60-cı illərində yaranan bədii ədəbiyyat nümunələrindəki obrazların və konfliktlərin köhnə-yeni qarşıdurması kontekstində təsviri sovet ədəbiyyatının keçdiyi inkişaf yolunu izləməyə imkan verir;

– Ədəbiyyatda "vətəndaş müharibəsi" mövzusunun təsviri və obrazların bu kontekstdə yaradılması ideologiyanın bədii yaradıcılığa mənfi təsirini ortaya qoyur;

– Yazıçıların yaradıcılığına ideoloji kontekstdən yanaşılması və onların "xalq düşməni" obrazının formalaşdırılması

istiqamətində fəaliyyətinin sovet ədəbiyyatşünaslığında təhlili bu tendensiyanın yuxarıdan diktə olunduğunu söyləməyə əsas verir;

– Dövrün ədəbiyyatının dəyərləndirilməsində ədəbi tənqid və ədəbiyyatşünaslığın sosrealizm mövqeyindən çıxış etməsi ideoloji sapıntılara səbəb olmuşdur;

– XX əsrin 50-60-cı illərində həyat həqiqəti və bədii gerçəkliyin təsvirində yeni sərhədlər müəyyənləşdirilmiş, obrazlar daha çox mənfi-müsbət qütblərə bölünmüş və ədəbiyyatda insan amili önə çəkilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini şərtləndirən əsas amillərdən biri araşdırmanın dövrün ədəbi inkişaf meyllərini nəzərə alaraq çağdaş ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən aparılmasıdır. Çünki zaman keçdikcə ədəbiyyata münasibət də dəyişir. İdeoloji sistem çərçivəsində yaranan ədəbiyyat yenidən qiymətləndirmə süzgəcindən keçərkən bu, daha aydın şəkildə özünü göstərir.

Sosrealizm öz ömrünü başa vurduqdan sonra onun söykəndiyi ideoloji prinsiplər də nəzəri gücünü itirdi və onun yerini yeni elmi-nəzəri müddəalar tutdu. Ona görə də sovet dövrü ədəbiyyatını dəyərləndirərkən ideoloji deyil, elmi-nəzəri konsepsiyalara söykənmək lazım gəlir.

Mahiyyətcə ideoloji, mürəkkəb və ziddiyyətli olan bir dövrün ədəbiyyatına ideologiyadan kənar psinsiplərlə yanaşmaq və təhlil etmək tədqiqatın elmi yeniliyini şərtləndirir. Ədəbiyyat tarixi və ədəbi prosesin öyrənilməsində nəzəri meyarlara və metodoloji prinsiplərə söykənən dəyərləndirmələr dövrün ədəbiyyatının araşdırılması üçün ən doğru və obyektiv yoldur. Azərbaycan ədəbiyyatının inkişafında bir dövr təşkil edən bu mərhələni bütün mənfi və müsbət tərəfləri ilə ideologiyadan kənar təhlil etmək və dəyərləndirmək elmi yeniliyin vacib şərtlərindən biridir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işindən Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında, ötən əsrin 20-60-cı illərinin ədəbi prosesinin təhlilində, ədəbiyyatşünaslığın aktual problemlərinin tədqiqində və “Müasir Azərbaycan ədəbiyyatı” fənninin tədrisi zamanı dərs vəsaiti kimi istifadə etmək olar. Dövrün ədəbi hadisə və şəxsiyyətlərinin yaradıcılığının

dəyərləndirilməsi prosesində dissertasiyada istifadə olunan yeni meyarlardan yararlanmaq, tədqiqat zamanı irəli sürülən ayrı-ayrı müddəalara istinad etmək mümkündür.

Uzun müddət ideoloji tələblər çərçivəsində birtərəfli təhlilə məruz qalan Azərbaycan sovet bədii nəsrinin görkəmli nümayəndələrinin əsərlərinin yeni baxış bucağından təhlil edilməsi, yaradıcılıq metodlarının müqayisəli şəkildə araşdırılması baxımından tədqiqat işindən çağdaş dərsliklərin hazırlanmasında istifadə edilə bilər. Bundan başqa, tədqiqat prosesində analizə cəlb olunan mənbələrə dövrün tarixi hadisələrinin yenidən qiymətləndirilməsi prosesində istinad edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Elmi şurası və Ədəbiyyatşünaslıq üzrə Problem Şurası tərəfindən təsdiq olunaraq çağdaş ədəbiyyatşünaslığın elmi-nəzəri tələbləri səviyyəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi müxtəlif elmi məcmuələrdə dərc olunan məqalələrdə, beynəlxalq və respublika əhəmiyyətli konfrans materiallarında öz əksini tapmışdır. Eyni zamanda, tədqiqat işinin əsas elmi nəticələri iddiaçının xaricdə müxtəlif nüfuzlu elmi nəşrlərdə, həmçinin impakt faktorlu jurnallarda dərc olunan məqalələrində, iştirakçısı olduğu və məruzə etdiyi beynəlxalq və respublika əhəmiyyətli konfransların materiallarında və tezislərində yer alıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, dörd fəsil (ümumilikdə 14 paraqraf), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 23 043, I fəsil 82 124, II fəsil 96 101, III fəsil 108 831, IV fəsil 139 747, Nəticə 11 157 şərti işarə olmaqla dissertasiyanın ümumi həcmi 461003 şərti işarə təşkil edir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsaslarından bəhs edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Tədqiqat işinin "**Ədəbiyyatda ideoloji təzahürlərin ictimai-siyasi və ədəbi istiqamətləri**" adlanan birinci fəsli 3 paraqrafdan ibarətdir. Birinci fəslin "**Yeni cəmiyyətin formalaşması mühitində ideologiyanın ədəbiyyata təsiri"** adlı ilk paraqrafında XX əsrin 20-60-cı illər Azərbaycan ədəbiyyatının bədii düşüncənin dinamikası baxımından özündən əvvəlki dövrlərdən tamamilə fərqli bir mərhələ təşkil etməsi, yeni ictimai-siyasi proses daxilində istiqamət götürməsi məsələləri araşdırılır. Göstərilir ki, bu istiqaməti 1920-30-cu illərdə bütünlüklə, 1950-ci illərdən sonra isə qismən rəsmi, inzibati idarəetmə sistemi müəyyənləşdirmişdir. Ötən əsrin əvvəllərində milli özünüdərk və milli şüurun formalaşması baxımından önəmli rol oynamış bədii düşüncə, zaman etibarilə qısa, lakin məzmun baxımından zəngin bir yol keçən romantizm, tənqidi realizm və maarifçi realizm cərəyanları bolşevizmin gəlişi ilə zorən yeni bir istiqamətə yönləndirildi. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində bədii fikir milli özünüdərk prosesinin ən yüksək zirvəsinə çatsa da, milli hökumətin süqutu və bolşevik ideologiyasının gəlişi ilə ədəbiyyat ideoloji nəzarət altına keçmiş oldu.

Bütün araşdırmalarda ədəbiyyatın partiyalılığı və yeni proletar ədəbiyyatının yaranması 1920-ci illərə aid edilsə də, ədəbiyyatı, bədii düşüncəni təbliğat maşınına çevirmək meyilləri XX əsrin əvvəllərindən hiss olunmağa başlamışdı. Proletariatın "dahi rəhbəri" hesab olunan V.İ.Leninin (1870–1924) hələ 1905-ci ildə yazdığı "Partiya təşkilatı və partiya ədəbiyyatı" məqaləsində yaradıcılığın mütləq azad olması haqqındakı mühakimələri ədəbiyyatı ideoloji, partiyalı istiqamətə yönləndirirdi. Bu məqalə sonralar proletar ədəbiyyatının, proletkultçuluğun və sosialist realizminin meydana gəlməsində ilkin ədəbi-nəzəri mənbə rolunu oynadı.

Tədricən ədəbiyyat və incəsənət sahəsində sinfi mübarizənin zəruriliyi məsələsi gündəmə gəlirdi. Bütün əvvəlki mədəniyyət "burjua" təyini qazanır, yaxud əksinqilabi, antixalq və s. elan edilirdi. Bu vaxtlar ədəbiyyatdakı hər bir nəzəri məktəb və istiqamətlərin marksizm klassiklərinin əsərlərinə uyğunlaşmalı olduğu mütləq həqiqət hesab edilirdi. Bu proses həm də ədəbi cəmiyyətlərin və dərnəklərin qurulması ilə davam edirdi. 1920-ci illərin ən güclü ədəbi təşkilatı 1925-ci ilin yanvar ayında yaradılmış Rusiya Proletar Yazıçıları Assosiasiyası idi. RAPP-ın üzvləri incəsənətdə partiya siyasəti məsələsinə "proletar inqilabi irsinə xidmət" nöqteyi-nəzərindən yanaşır, proletkultun vulqar-sosioloji, nihilist təmayüllərini daha güclü şəkildə mənimsəmiş varisi kimi çıxış edir və onlara qarşı çıxanları partiyanın platformasına qarşı çıxanlar kimi qiymətləndirirdilər. RK(b)P Mərkəzi Komitəsi Siyasi Bürosunun 18 iyun 1925-ci il tarixli "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" qətnaməsi ədəbi təşkilatların birləşməsinə xidmət göstərərək bu sahədə partiya xəttini tam aydınlaşdırmış oldu.

ÜİK(b)P Mərkəzi Komitəsinin 1932-ci ildə "Ədəbi-bədii təşkilatların yenidən qurulması barədə" qəbul edilmiş qərarında Rusiya Proletar Yazıçıları Assosiasiyasının ləğv edilməsi və əvəzində partiya siyasətini daha aktiv himayə edən, sosialist quruculuğunda iştirak etmək istəyən bütün yazıçıları vahid Sovet Yazıçıları İttifaqında birləşdirmək zərurətindən danışılırdı.

Sosialist realizmi termininin yaranması haqqında məlumatı isə o zaman ÜİK(b)P MK-nin ədəbiyyat sahəsi üzrə nümayəndəsi, Yazıçıların Birinci Ümumittifaq Qurultayının Təşkilat Komitəsinin icraçı sədri İvan Mixailoviç Qronskinin (1894–1985) xatirələrindən tapmaq mümkündür. Belə ki, vahid metod axtarışları məsələsində İ.Qronskinin təklif etdiyi *"proletar sosialist realizmi"* və *"kommunist realizmi"*variantlarını təhlil edən İ.V.Stalin (1878–1953) "sosialist realizmi" terminini təklif edir[33]. Belə qəbul olunur ki, "sosialist realizmi" termini ilk dəfə məhz İ.Qronski tərəfindən

[33] Гронский, И. Из прошлого... / И. Гронский. – Москва: Известия, –1991. – с.335

1932-ci ilin mayında Moskva ədəbi dərnəkləri fəallarının yığıncağındakı çıxışında səsləndirilmişdir.

Sovet Yazıçıları İttifaqının nizamnaməsində qeyd edilirdi ki, sosialist realizmi bədii yaradıcılığın janr və vasitələrini çərçivəyə salmır və yaradıcılıq təşəbbüsləri üçün geniş imkanlar açır, ancaq bu təşəbbüslərin totalitar cəmiyyətdə özünü necə göstərə biləcəyi qeyd olunmurdu. Sonrakı illərdə ədəbiyyat nəzəriyyəçilərinin əsərlərində yeni metod tədricən aydın görünən xüsusiyyətlər kəsb etməyə başladı; ümumi şəkildə bu əlamətlər ideyalılıq, partiyalılıq və xəlqilik prinsiplərini ehtiva edirdi.

1930-cu illərdə yaradılan yeni qəhrəman tipi “yüksək ideallar” uğrunda mübarizə aparırdı və belə əsərlər (Dmitri Furmanovun (1891–1926) “Çapayev”, İvan Şuxovun (1906-1977) “Nifrət”, Nikolay Ostrovskinin (1904-1936) “Polad necə bərkidi”, Valentin Katayevin (1897-1986) “Zaman, irəli”, Əbülhəsən Ələkbərzadənin (1904–1986) “Yoxuşlar”, Süleyman Rəhimovun (1900–1983) “Şamo” əsərləri və s.) geniş təbliğ edilirdi. Bir sözlə, “müsbət qəhrəman” obrazı sosialist realizminin məhək daşı, ən böyük nailiyyəti idi.

Partiya şüarlarına əsasən daima yaxşılaşmaqda olan həyatı “inqilabi inkişafda” təsvir edən yazıçılar həyatın qaranlıq tərəfinə ümumiyyətlə toxunmurdular. Sosialist realizminin nəzəriyyəçiləri də məhz bu cür optimist incəsənətin gərəkliyini əsaslandırmağa başlayırdılar. Onlardan biri bu barədə belə yazırdı: *“Bizə bayram ədəbiyyatı lazımdır: bayramlar haqqında ədəbiyyat yox, məhz insanı xırdalıqların və təsadüflərin fövqünə qaldıran bayram ədəbiyyatı”*[34].

Beləliklə, XX əsrin 20-50-ci illərində yeni bir ədəbi siyasətin əsasının qoyulduğunu görürük. Bu ədəbi siyasətdə ədəbiyyat kommunist ideologiyasının bir hissəsinə çevrilməli, təbliğat xarakteri daşımalı idi. Bu dövrü həm də senzuralı ədəbiyyat kimi də qiymətləndirmək olar. Totalitar sistemin göstərişi ilə yaranmış sosialist realizmi metodu uzun müddət ona sədaqətlə xidmət etsə də, ədəbiyyatı axıradək inzibati yolla idarə etmək mümkün olmadı. XX

[34] Эльяшевич, А. Будни или праздники? // – Москва: Звезда, – 1954. №10, – с.184

əsrin 60-cı illərində yeni ədəbi nəslin incəsənət aləminə gəlişi ilə bu metodun çöküşü başladı və nəhayət, o, iflasa uğradı.

Dissertasiyanın ilk fəslinin ikinci paraqrafı "**İdeoloji düşmən obrazlarının yaranmasını şərtləndirən amillər**" adlanır. Bu paraqrafda 1920-60-cı illərdə yaranan sovet ədəbiyyatında ideoloji düşmən obrazlarının meydana çıxması mövzusu siyasi-ideoloji və tarixi-ədəbi aspektlər vəhdətində araşdırılır.

Yeni ideologiya müəllifləri cəmiyyəti iki yerə bölürdü: burjualar və proletarlar. Cəmiyyətdə ideoloji mübarizə də məhz bu istiqamətdə gedirdi. Sinfi mübarizə yalnız cəmiyyətə deyil, onu əks etdirən mətbuata və ədəbiyyata da sirayət edirdi. Yeni mətbuat orqanlarının əsas vəzifəsi mümkün olduğu qədər yenini təbliğ, köhnəni tənqid etməkdən ibarət olurdu. Bütün mətbuat orqanları eyni deviz altında – "Bütün ölkələrin proletarları, birləşin!" şüarı ilə dərc edilirdi.

Azərbaycan Yazıçılar İttifaqının yaranması (1934) ilə ədəbi mühitdə çox zəif şəkildə olan müxtəliflik, fikir plüralizmi aradan qaldırılır və onlar bir ittifaqda təmsil olunurlar. İttifaqın orqanı olan "Ədəbiyyat qəzeti" isə yeni ədəbi orqanlar sırasına qoşulur. Lakin bu ədəbi orqanın səhifələrində də ədəbi, bədii materiallarla yanaşı, siyasi prosesləri, yaradıcı adamların siyasi mövqeyini əks etdirən çoxlu materiallar işıq üzü görmüşdür.

Bir qədər sonra insanın mənəvi baxımdan "yeniləşməsi" sovet ədəbiyyatının əsas mövzularından birinə çevrilir. Yazıçılar və tənqidçilər bu prosesin çətinlikləri, dramatikliyi barədə danışmağı xoşlamırdılar, yalnız bəzi hallarda "yeni həyat quran" qəhrəmanların "sinfi düşmənlər" tərəfindən öldürülməsi səhnələrini təsvir edirdilər. Təxminən iki roman, povest və ya poemadan birində "yeni, işıqlı həyata" qarşı dayanan düşmənlərin təxribatları, hiyləgərlikləri və kin-küdurətləri əks olunurdu. Müsbət qəhrəmanın yüksək məziyyətlərini göstərmək üçün ideoloji düşmən obrazı lazımi fon yaradırdı.

1928-ci ildə proletar yazıçılarının Birinci Ümumittifaq Qurultayı Ümumrusiya Assosiasiyasında struktur təkmilləşməsi həyata keçirərək onu yenidən təşkil etdi. Həmin ilin iyulunda İ.Stalinin sinfi mübarizənin güclənməsi nəzəriyyəsi xalqa bəyan

edildi. Onun *"Sinfi düşmənin üzərinə hücum"* ideoloji şüarı vəziyyəti kəskin dəyişdirdi, yaradıclıq azadlığı partiya senzurası tərəfindən daha güclü məngənəyə alındı.

Sosialist sənayesinin inkişafı və kənd təsərrüfatında "böyük inqilab" sayılan kollektivləşmənin başlanması ilə əlaqədar olaraq, ədəbiyyat və incəsənət yeni "inkişaf mərhələsinə" daxil oldu. Kollektivləşmə zamanı ideoloji düşmən sayılan qolçomaqların bir sinif kimi ləğvi Oktyabr çevrilişindən sonra baş verən "ən mühüm hadisələrdən" biri idi. İctimai həyatda və iqtisadiyyatda istinad nöqtəsi tapa bilməyən və sovet-sosialist gerçəkliyinin düşməni olan mühafizəkar yazıçıların sıradan çıxmaları da əsasən bu dövrdə həyata keçirilirdi. Bütün bunlar ideoloji düşmən obrazlarının yaradılmasını şərtləndirirdi.

Ümumən sovet ədəbiyyatında, o cümlədən bu dönəmdə Azərbaycanda yaranan bədii sənət nümunələrində ideoloji düşmən obrazlarının palitrası çox "zəngin" idi. Bura cəmiyyətin demək olar ki, bir çox təbəqəsi daxil edilirdi. Çünki cəmiyyət, hər şeydən əvvəl, yekcins deyildi: inqilablardan yenicə çıxmış müxtəlif sinif, təbəqə və zümrələrdən ibarət idi. Burada varlı, sahibkar, kapitalist, mülkədar, zadəgan da var idi. Bu müxtəliflik regiondan asılı olaraq dəyişirdi; burjua, hökmdar, xan, bəy, çar, dövlət məmuru, çar zabiti, ruhani, din xadimi, molla, Allaha inanan adi dindar, məscid əhli, rövzəxan, mərsiyəxan və b. Azərbaycanda bu siyahıya müqəddəs "Qurani-Kərim"i və ümumiyyətlə, Quran əlifbası hesab edilən ərəb yazısı ilə olan kitabı evində saxlayan axund-imam da, sadə vətəndaş da, milli ideyaya sadiq Azərbaycan Xalq Cümhuriyyəti xadimləri də, müsavatçılar da daxil idi. Hətta bəzən Azərbaycanda Rusiyada olduğu kimi ağqvardiyaçılar da "tapırdılar".

Məlum olduğu kimi, "xalq düşməni" ideoloqemi təkcə Stalin dönəminin siyasi ritorikasının hazır qəlibi deyildi, bu termin həm də rəsmi sənədlərdə - 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasının 131-ci maddəsində öz əksini tapmışdı. İctimai təfəkkürdə özünə yer edən "düşmən" obrazı kommunist ideologiyasının önəmli elementi, daha doğrusu, ideoloji manipulyasiya prosesinin mühüm tərkib hissəsi idi. XX əsrin 30-50-ci illərində Sovet İttifaqının ərazisində bütün fəaliyyət sahələrində

aşkar və gizli şəkildə daxili və xarici düşmənlərlə mübarizə təbliğ edilirdi.

Ədəbiyyatda da sosialist realizminin əsas tələblərindən biri sinfi düşmənlə mübarizə idi. XX əsrin 30-cu illərində, xüsusən də repressiya illərində "daxili düşmən" az qala bədii əsərlərin baş qəhrəmanı səviyyəsinə yüksəldilirdi. "Qəhrəman-düşmən" aksimeronu XX əsr 20-50-ci illər sovet ədəbiyyatının ayrılmaz elementinə çevrilmişdi.

İki bir-birinə qarşı olan qütbə parçalanmış cəmiyyətdə hər kəs kimi yazıçılar da "düşmən olmamaq" üçün çalışırdı. Bunun üçün də keçmiş quruluşun mənəvi dəyərlərini tam məhv etməyə yönəlmiş bədii əsərlərində "düşmən" obrazı yaradır, onu siyasi konyukturanın sifarişinə müvafiq təsvir edirdilər. Sosializm irəli getdikcə düşmən obrazlarının sayı və forması da dəyişirdi: qolçomaqlar, ortabab kəndlilər, azad fikir sahibləri, kommunizmə şübhə edən və tənqidi yanaşan idealistlər, romantiklər, sovet-sosialist həyatından mübaliğəli bir iftixarla yazmağı bacarmayan, kolxoz, sovxoz, zavod, fabrik və s. obyektləri tərənnümlə təsvir etməyən, sənayeləşdirmə, kollektivləşdirmə kimi məsələlərin təsvirində mövcud sistemin təbliğatına uymayan yazı-pozu adamları, "cığırdaşlar", xırda burjua yazıçısı və ya şairi hesab edilən qələm sahibləri və başqa antisovet, antisosialist "ünsürlər" ideoloji düşmən obrazlarının qida mənbəyi ola bilərdilər.

Beləliklə, apardığımız təhlil və araşdırmalar göstərir ki, ümumən sovet ədəbiyyatında yaradılmış ideoloji düşmən obrazları ilk növbədə SSRİ-nin siyasi rejimini müəyyənləşdirən və ictimai həyatın bütün sahələrini, o cümlədən mədəniyyəti, incəsənətin bütün növlərini, ədəbiyyatı əhatə edən marksizm-leninizm təlimindən doğmuşdu. Ölkənin təxminən ilk əlli illik tarixi ərzində marksizm-leninizm bədii yaradıcılıqda ideoloji düşmən obrazlarının tarixi-fəlsəfi və sosial-mədəni mənbəyi rolunu oynamışdır.

Birinci fəslin "**Köhnə və yeni məfkurə müstəvisində ideoloji obrazların təşəkkülü"** adlı üçüncü paraqrafında göstərilir ki, 1920-ci illər Azərbaycan ədəbiyyatında başlıca mövzulardan biri keçmişlə bu gün, köhnə ilə yeni arasında gedən mübarizənin təsviri idi. Cəmiyyətin məcburən dəyişdirilməsi ədəbiyyatı da bu istiqamətə

kökləyir, ictimai-siyasi, ailə-məişət kontekstində yazılan əsərlərin konfliktinin əsasında da çox zaman məhz bu ideya dayanırdı. 1920-ci illərdə Hacıbaba Nəzərli (1895-1938), Tağı Şahbazi Simurğ (1889–1938), Böyükağa Talıblı (1897–1938) kimi yazıçıların əsərlərində də bu mövzu işlənmişdi.

H.Nəzərlinin "Qara və qırmızı", "Qaratel", "Qəhrəmanın romanı" hekayələrində 1918-1920-ci il hadisələri ideoloji yöndən təsvir edilir. Həm də bu dövr təkcə H.Nəzərli tərəfindən deyil, eləcə də, bütün yazıçılar və tarixçilər tərəfindən vətəndaş müharibəsi olaraq qələmə verilir. Halbuki vətəndaş müharibəsi Azərbaycanda deyil, Rusiyada baş vermişdir. Kommunist ideologiyası vətəndaş müharibəsi dedikdə bu illərdə erməni-bolşevik birliyinin azərbaycanlılara qarşı törətdiyi soyqırımı və cinayətləri nəzərdə tuturdu.

"Yüz iyirmidən ikisi" adlı hekayədə təsvir olunan hadisə və obrazlarda da köhnə-yeni qarşılaşdırması diqqət çəkir. Buna uyğun mövzu və konflikt müəllifin "Rəfail" hekayəsində də izlənilir. Hekayədə bir tacirin kooperativlə mübarizəsi təsvir edilir. Hekayə iki xətt üzrə inkişaf edir; birincidə Rəfailin, ikincidə isə aşığın həyatı təsvir olunur. Köhnə-yeni qarşıdurması "Üç dövrün canlı arxivi" hekayəsində bir qədər də dərinləşir. Hekayədə Cəfər əmi obrazının yaradılmasında və təsvirində müəllif ideoloji mövqeyə üstünlük verərək XX əsrin əvvəllərinə, 1917-1920-ci illərə və sovet dövrünə nəzər salır. Son iki mərhələnin təsvirində bunu daha aydın görmək mümkündür. Yazıçı Cümhuriyyət dövrünün təsvirində ideologiyaya daha çox meyil etmiş, bir çox hallarda sxematikliyə, təhriflərə yol vermişdir: *"17-ci ilin əvvəlindən 20-ci ilə qədər keçən bir ixtilal, hökumətsizlik, qanunsuzluq dövrü Cəfər əminin beynində yalnız bir təsir buraxır və o, hər yerdə deməsə də, öz-özünə fikirləşirdi: "Möhkəm bir hökumət və qanun lazımdır, belə gedərsə, camaat məhv oldu"* [35]. Göründüyü kimi, yazıçı Cümhuriyyət dövrünün adını çəkmədən ona ideoloji yöndən yanaşır və Cəfər əmi obrazı ilə açıq şəkildə o illəri *"hökumətsizlik", "qanunsuzluq"* dövrü kimi

[35] Nəzərli, H. Seçilmiş əsərləri / H.Nəzərli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1963. –s.72-73

səciyyələndirir və bunu açıq tarixlə – 1917-1920-ci illər kimi göstərir. Bu tarixin göstərilməsi həmin dövrdə Rusiyada baş verən 1917-ci il fevral çevrilişi ilə bağlı idi və mexaniki şəkildə bu tarix Azərbaycan tarixinə də şamil edilirdi.

H.Nəzərlinin hekayələrində əsasən Cümhuriyyətdən əvvəlki və Cümhuriyyət dövrü təsvir edilirdi. Onun hekayələrində hadisələr bolşevizm dövrünə qədər gəlib çıxır. Maraqlıdır ki, bu hekayələri dövrün ədəbi tənqidi vətəndaş müharibəsi dövrünü əks etdirən əsərlər kimi təqdim edir ki, bu da yanlışdır. Ümumiyyətlə, bir yazıçı kimi H.Nəzərlini təsvir etdiyi hadisələrdə inqilab, mübarizə maraqlandırır və əsərin konflikti də bu istiqamətdə qurulurdu. Bu hekayələrdə yeni dövr təqdir olunmaqla yanaşı, cəmiyyətdə gizlənmiş antikommunist ünsürlərin obrazı da yaradılırdı.

Ötən əsrin 20-ci illərində bədii hekayələrlə yeni həyatı təsvir edən barmaqla sayılacaq qədər az yazıçılardan biri də T.Ş.Simürğ idi. Onun bu illərdə dərc etdirdiyi “Aclar”, “Kənddə, yaxud əcəl”, “Hürriyyət günəşi”, “Aldanmış ümid”, “Əzab qorxusu”, “Haqsızlıq dünyasında”, “Son dərd” və s. hekayələrində yeni dövrün ziddiyyətlərini görürük. 1923-cü ildə yazdığı “Aldanmış ümid” hekayəsində Kərbəlayi Fərzəli adlı varlı sinifdən olan bir tacirin taleyi təsvir edilir. İş elə gətirir ki, Kərbəlayi Fərzəlinin qızını bolşevik Heydər istəyir. Lakin onun bolşeviklərə münasibəti pis olduğundan qızını vermək istəməsə də, bir neçə adamla məsləhətləşəndən sonra bu işə razılıq verir. Toydan sonra Kərbəlayi Fərzəli malını qaytarması ilə bağlı öz fikrini açıb bolşevik Heydərə dedikdə: *“– Yox, kərbəlayı, mən bu işə qarışmaram və qarışa da bilmərəm. Sən varlısan, varlının malı alınıb zəhmətkeşlərə verilməlidir. Bu inqilabın tələbidir; fəhlə və kəndçi inqilabı”*[36] cavabını alır. Bundan sonra Kərbəlayi Fərzəlinin bütün ümidləri puç olur.

Yazıçı bu hekayədə öz dövrü üçün xarakterik olan tacir tipini, onun həyat yolunu son dərəcə inandırıcı şəkildə təsvir edir. Əsərdə nə mövzuya, nə obraza nə də hekayənin bədii həllinə hər hansı bir ideoloji təzyiq görmək olmur. Ədəbiyyatşünas Abuzər İsmayılov

---

[36] Simürg, T.Ş.Seçilmiş əsərləri / T.Ş.Simürg. – Bakı: Şərq-Qərb, – 2006. –s.55

obrazla bağlı belə bir doğru qənaətə gəlir: *"Müəllif onu iki bir-birinə zidd ictimai quruluşda təsvir edir. İnqilaba qədərki həyat Kərbəlayi Fərzəlinin bir burjua tipi kimi inkişafına, varlanmağına şərait yaradırsa, yeni quruluş onun arzularını bir xəyala çevirir, mal-dövləti əlindən çıxır"*[37]. Fikrimizcə, əsərin əsas ideyası və müəllifin məqsədi də elə budur. Yazıçı tendensiyasız şəkildə dövrün gerçəkliklərini əks etdirir. Bu əksetdirmədə yeni quruluşun xarakteri və gələcəkdə hansı fəsadlara yol aça biləcəyi tipik bir obrazla göstərilir.

B.Talıblının "Qırx zopa" hekayəsi bir novella olmaqla yanaşı, Cümhuriyyət dövrünə münasibətin ilk nümunəsi kimi də maraqlıdır. Aydındır ki, bu dövrdə 23 ay ömür sürmüş Cümhuriyyətə və onun dəyərlərinə qarşı kəskin şəkildə təbliğat gedirdi. Lakin yazıçı hekayənin süjet xəttinə maraqlı bir hadisənin təsvirini qoymuş və onu gözlənilməz sonluqla bitirmişdir. Hekayədə xarici görkəmi, davranışı və rəftarı, eləcə də Namiq Kamaldan əzbərlədiyi, adamlar içində tez-tez yerli və yersiz təkrar etdiyi beyt ilə məşhur olan Süleyman təsadüfən bir türk əsgəri ilə tanış olur. Süleyman türklərin Bakıya gəlişindən (əslində Qafqaz İslam Ordusu Bakını azad etmişdi, lakin yeni ideologiya bunu söyləməyə imkan vermirdi) çox məmnun idi, hətta özünü Osmanlı türklərindən biri hesab edirdi. Türklərin şəhərdə qayda-qanun yaratmalarını bəyənsə də, tiryək çəkməni qadağan etmələri onu açmırdı. Lakin Süleymanda belə təsəvvür yaranmışdı ki, o da türk zabitləri kimi tiryək çəkə bilər. Onun bu düşüncəsi bir hadisə ilə dəyişir. O, çayxanaların birində tiryək çəkdiyi zaman yaxalanır, camaatın gözləri önündə komandanın əmrilə ona qırx zopa vurulur. Süleymanın hadisəyə reaksiyası isə gözlənilməz olur: *"– Vallah insaflı adamdırlar... Allah atalarına rəhmət eləsin, yenə də başımı yaxşı qurtardım... Qırx zopa... kim bilir, birdən ağzına gələydi yüz zopa, iki yüz zopa... qanun yox, qayda yox"*[38].

Əlbəttə, burada B.Talıblı bir yazıçı kimi realizmə sadiq qalmamış, dövrün xarakterini təsvir edərkən ideoloji, siyasi

---

[37] İsmayılov, A. Kommunist ədib // – Bakı: Simürg T.Ş. Seçilmiş əsərləri, – 1983, – s. 8
[38] Talıblı, B. Seçilmiş əsərləri / B.Talıblı. – Bakı: Azərnəşr, – 1960. – s.51

reallıqdan çıxış etmişdir. Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi, Bakını erməni-bolşevik işğalından azad etməsi faktının yazıçı interpretasiyasında türklərin burada qoyduğu qayda-qanunun *“qayda-qanunsuzluq”* şəklində təsbit olunması reallığı əks etdirmir. Buna baxmayaraq, Süleyman obrazı öz cildini tez-tez dəyişən obraz kimi maraqlı və yeni idi.

B.Talıblının “Erkək Tükəzban” hekayəsində isə 20-ci illər Azərbaycan həyatı təsvir olunur. 1926-cı ildə yazılan hekayə dəyərləndirmələrdə uzun müddət qadın azadlığı mövzusu ilə məhdudlaşdırılmışdır. Halbuki hekayədə həmin dövrün ictimai hadisələri obyektiv gerçəkliklə əks olunmuşdur. Hekayədə sadə süjet əsasında Erkək Tükəzban obrazı ilə proletar hakimiyyətinin Azərbaycan cəmiyyətindəki roluna yer verilir.

Beləliklə, ideoloji təzahürlərin ədəbiyyatda əksi probleminə nəzər yetirərkən görürük ki, 1920-ci illərdə müasir həyat hadisələrindən yazılan bədii əsərlərdə həyatın birtərəfli təsvirinə geniş yer verilirdi. Yeni cəmiyyətin təsvir edilməsində realizm və tənqidi realizm bir qədər kənara çəkilmişdi. İndi hadisələrin və obrazların təsvirində inqilab amilləri nəzərə alınırdı. Yazıçılar mümkün olduğu qədər tendensiyalılığı qoruyub saxlamaq istəsələr də, bir çox hallarda hadisələrin təsvirində sinfi ziddiyyətlərə yer verməkdən yaxa qurtara bilmirdilər.

Dissertasiyanın **“Ədəbiyyatın cəmiyyəti ideoloji meyarlarla təsviri problemləri”** adlanan ikinci fəsli üç paraqrafdan ibarətdir. **“Vətəndaş müharibəsi” mövzusunda obrazların yaradılmasında ideoloji meyillər”** adlı birinci paraqrafda 1930-cu illər Azərbaycan ədəbiyyatında yaxın dövr hadisələrinin təsviri araşdırılır. Qeyd olunur ki, bu dövrdə yazılan romanlarda epoxal hadisələrin təsvirinə geniş yer verilirdi. Əbülhəsən, Mehdi Hüseyn, Əli Vəliyev (1901–1983), Mir Cəlal (1908–1978), Məmməd Səid Ordubadi (1872–1950), Süleyman Rəhimov və başqalarının povest və romanlarında son otuz ilin hadisələri təsvir olunur, ictimai proseslərdə sinfi ziddiyyətlər və konfliktlər əks etdirilirdi.

Əgər 1930-cu illərdə S.Rəhimov, M.Cəlal, Əbülhəsən hadisələri kollektivləşmə və yeniləşmə müstəvisində təsvir edirdisə, M.S.Ordubadi tarixi kontekstdə, yəni inqilabi prosesləri əks

etdirmək yolunu tutur. Onun "Dumanlı Təbriz" (1933-1938), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) romanlarında tarixi hadisələr məhz bu istiqamətdə davam edir, əhvalatlar kənddə deyil, şəhərdə baş verir və ictimai-siyasi proseslər, partiyaların mübarizəsi təsvir olunurdu. Bu əsərlərdə tarixi hadisələr önə keçir, tarixilik prinsipi əsas götürülürdü.

"Dumanlı Təbriz" romanında hadisələr 1905-1911-ci illərdə İran ərazisində, Təbriz şəhərində baş vermiş inqilabi hərəkatın gedişatını əks etdirirdi. Romanda inqilabın Şimali Azərbaycandan Cənubi Azərbaycana – Təbrizə keçməsi prosesi təsvir olunur və hadisələr Əbülhəsən bəy-Nina, Əbülhəsən bəy-Səttarxan, Əbülhəsən bəy-Miss Hanna, Bağır xan və başqa inqilabçılar arasında cərəyan edir. Romanın əsas qəhrəmanı Əbülhəsən bəy hadisələrin mərkəzində dayanır və onun ictimai-siyasi fəaliyyəti mövcud inqilabi nəzəriyyəyə əsaslanır. Əbülhəsən bəyin inqilabi düşməni isə müstəmləkəçilik siyasətini təmsil edən Miss Hannadır. Əbülhəsən bəylə Amerika səfirliyinin işçisi Miss Hanna arasında gedən mübarizə əsərin sonunda birincinin qələbəsi ilə başa çatır və Miss Hanna Təbrizi tərk edir. Yazıçının Təbriz inqilabının məqsəd və məramını özündə ehtiva edən Səttarxanın başçılıq etdiyi güclü bir xalq hərəkatını Rusiya inqilabına bağlamaqda məqsədi sosialist inqilabının coğrafiyasını genişləndirməkdir.

M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında tarixi hadisələr çoxşaxəlidir. Buna görə də bu hadisələri olduğu kimi təsvir etmək, tarixi prinsipləri gözləmək müəllif üçün çətin olmuşdur. Bu, əsərdə təsvir olunan tarixi hadisələrə, yaradılan ideoloji obrazlara da öz təsirini göstərmişdir. Ədəbiyyatşünas Məsud Əlioğlu (1928–1973) əsərdəki bu uyğunsuzluqları nəzərdə tutaraq yazırdı: *"Dumanlı Təbriz"də macəraçı-sentimental üslub bir tərəfdən realizmin zəifləməsi, digər tərəfdən də tarixi şəxsiyyətlərin və hadisələrin saxtalaşdırılması, lüzumsuz təfərrüatın artması hesabına romanın bədiiliyinə xeyli ziyan yetirmişdir"*[39].

M.S.Ordubadinin "Gizli Bakı" və "Döyüşən şəhər" əsərləri

---

[39] Əlioğlu, M. Darıxan adamlar (seçilmiş əsərləri) / M.Əlioğlu. – Bakı: Təhsil, – 2018. –s.369

1918-1920-ci illər hadisələrini əhatə edir. Bu illərin tarixi hadisələrinin sosialist inqilabı nöqteyi-nəzərindən təsviri, ideoloji obrazların yaradılması təkcə tarixi həqiqət prinsipinin pozulması deyil, həm də bu hadisələrə münasibətdə bütöv bir nəslin düşüncəsini yanlış şəkildə formalaşdırmaq demək idi. Bu mənada hər iki romandakı ideoloji yanaşmalar, həmin dövrdə yazılan digər əsərlərdən daha çox milli düşüncəyə ziyan vurmuşdur. Həmin dövrdə bu cür tarixi hadisələrə münasibətdə tətbiq edilən model isə yazıçıya hadisələri olduğu kimi təsvir etməyə imkan vermirdi. Bütün bu şərtlərlə bərabər akademik İsa Həbibbəylinin (1949) də qeyd etdiyi kimi,*"müəllif imkan daxilində birtərəfli şəkildə olsa da, əhatə etdiyi epoxanın ana xətlərini təqdim edə bilmişdir"* [40].

Yaradıcılığa yeni başlayan M.Hüseyn də "Daşqın" əsəri ilə tarixi mövzuya geniş miqyasda müraciət edən ilk yazıçılardan idi. M.Hüseynin hələ bu əsərə qədər yaradıcılığının ilk illərində yazdığı "Əlli iki" (1929), "Studentlər" (1929), "Qayıtmadı" (1929) hekayələrində vətəndaş müharibəsi mövzusuna müraciət etməsi uşaqlıq dövründə gördüyü hadisələrin onun yaddaşında dərin kök saldığına işarə idi. Məhz bu cəhətdən "Daşqın" əsərini bu hekayələrin davamı da hesab etmək olar. M.Hüseyn "Şair" kino-dramında yenidən bu mövzuya qayıdır. Əsərdə bolşeviklər kommunasının məğlubiyyətindən sonrakı dövrə müraciət olunur.

M.Cəlalın "Dirilən adam" (1936) və "Bir gəncin manifesti" (1940) əsərlərində də vətəndaş müharibəsinin hadisələri tipik xüsusiyyətləri ilə əks etdirilir və müəyyən təsəvvür yaradılır. Tənqidçi Hidayət Əfəndiyev romanın mövzu əhatəsini vətəndaş müharibəsi ilə əlaqələndirərək yazırdı: *"Dirilən adam" müəllifin idrak imkanlarını, məişəti, təbiəti, hadisə və insanları təcəssüm bacarığını, milli folklorla əlaqə-təmas məharətini bir çox cəhətdən üzə çıxartdı. Roman Azərbaycan Vətəndaş müharibəsi dövrünün hadisələrindən bəhs edirdi. Lakin o, 1919-1920-ci illər Azərbaycanının inqilabi-tarixi mənzərəsini çəkmək vəzifəsini qarşıya*

[40] Həbibbəyli, İ . Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi // İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2012. – s.57

*qoymamışdı"* [41].

M.Cəlalın "Bir gəncin manifesti" povestinin mövzusu da "Dirilən adam"la paralellik təşkil edir. Burada da yazıçı "iniqlab"dan əvvəlki dövrün hadisələrini təsvir edir. Əsərdə əzilənlərlə əzənlər, istismar edilənlərlə istismar edənlər arasındakı dərin ictimai təzadlar əks olunur. Lakin elə epizodlar da var ki, yazıçı burada Cümhuriyyət dövrünün həyat hadisələrini epizodik şəkildə də olsa, işıqlandırır. "Bir gəncin manifesti" bir ailənin taleyi fonunda xalqın həyatında baş verən hadisələri reallıqla əks etdirir.

Beləliklə, XX əsrin 20-30-cu illər Azərbaycan ədəbiyyatında vətəndaş müharibəsinə həsr edilən əsərlərin əsas mövzusu "inqilab"dan əvvəl Azərbaycanda gedən proseslərin təsvirindən ibarət olurdu. Bu əsərlərdə müəyyən ideoloji meyillər özünü göstərsə də, əsasən dövrün gerçəklikləri bütün ruhu ilə öz əksini tapırdı.

İkinci fəslin "**1930-cu illər tarixi gerçəkliyi kontekstində poeziyada yeni ideoloji meyillərin formalaşması"** adlı ikinci paraqrafında göstərilir ki, XX əsrin 30-cu illərində cəmi on il əvvəl tənqidi realizm, romantizm və maarifçi realizm cərəyanları ilə irəliləyən ədəbiyyat proletar hegemoniyası ilə qarşılaşmışdı.

Yaradıcılığa yeni başlayan bütün şairlər qızıl əsgərə, qızıl orduya, 26-lara istisnasız olaraq şeirlər yazırdılar. Bununla onlar həm də yazıçıların qurultayında səslənən çağırışlara əməl edirdilər. Süleyman Rüstəmin (1906–1989) "Komsomol", "Komsomol şərqisi", "26-lar şəhərinə", "Çapayev", "Lökbatan" və s. şeirlərində dövrün siyasi çağırışları poetik əksini tapır, onun bu şeirləri baş verən siyasi proseslərə adekvat qələmə alınırdı.

Rəsul Rzanın (1910–1981) həmin illərdə dərc edilən "Çapey", "Qanadlar", "Çinar" adlı şeir kitablarında sosializm quruculuğunu təsvir edən şeirlər yer alırdı. Bu cəhətdən "Bolşevik yazı" şeiri şairin bu dövr yaradıcılığının manifesti hesab edilirdi:

*"Bir səs deyir:*
*Rza durma!*

[41] Əfəndiyev, H. Nəsrimiz yüksəliş yollarında /H.Əfəndiyev. – Bakı: Azərnəşr, – 1936. – s.4

*Rza yaz!*
*Yaza yaz!*
*Qarşı gündən gülümsəyən*
*Yaraşıqlı yaza yaz!*
*Bu səs mənə əmr edir,*
*Bu səs,*
*Səsi səsim olan,*
*Bir varlığın əmridir”* [42].

Mikayıl Müşfiqin (1908–1937) “26-lar”, “Tərtərhes nəğmələri”, “Həsrətli qarı”, “Bəyaz çöllər”, “Əbədiyyət nəğməsi”, “Mingəçevir həsrəti” şeirlərində, “Əfşan”, “Buruqlar arasında”, “Dezertir”, “Azadlıq dastanı” və s. poemalarında ideoloji təsvirlərə və obrazlara rast gəlmək olur. “26-lar” şeirində şair tərəfindən o dövrdə çox məşhur olan və azadlıq uğrunda ölümə göndərilənlər kimi qələmə verilən və ideologiyanın qəhrəmanlarına çevrilən 26-ların ümumi obrazı yaradılır. Yaxud şairin Oktyabr inqilabına ithaf etdiyi “Vuruşmalar” poemasında rus inqilabının baş verməsi, bütün millətlərin mütləqiyyəti yox etməsi, proletariatın qalib gəlməsi təsvir olunur. Belə şeirlərdə pafosla yanaşı, ictimai-siyasi düşüncə başlıca yer tutur və ideoloji obrazlar yaradılırdı, bəzən şairin ictimai platformasını bəyan etmək və ya ədəbi prosesdə müəyyən mövqe tutması üçün yazılırdı.

Səməd Vurğunun (1906–1956) “Komsomol poeması” təkcə bədii cəhətdən deyil, məzmun və obrazların orijinallığı ilə də dövrün ziddiyyətlərini olduğu kimi vermək baxımından əhəmiyyətlidir. Bir poema olaraq XX əsrin 30-cu illərinin ədəbi hadisəsi olan bu əsərdə dövrün ziddiyyətləri, mürəkkəblikləri bir çox hallarda tendensiyasız əks etdirilirdi. “Komsomol poeması”nda XX əsrin 20-ci illərində Azərbaycan cəmiyyətində gedən ictimai-siyasi gerçəkliklər təsvir olunurdu. Mübarizə aparan cəbhələrin bir tərəfində yeddi komsomol, digər tərəfində isə Gəray bəyin başçılığı ilə dağlara çəkilən əksinqilabçılar dayanırdı.

Gəray bəy obrazı ilə S.Vurğun bolşevik hakimiyyəti ilə barışmayan bəy obrazını yaradır. Əsərin süjet xəttini ideoloji

[42] Rza, R. Bolşevik yazı // – Bakı: İnqilab və mədəniyyət, – 1931. №3-4, –s.24

kontekstdə deyil, məhəbbət motivi üzərində qurmaqla şair müəllif mövqeyini sığortalamışdır. Cəlal Gəray bəyə qarşı ideoloji düşmən mövqeyində olmasına baxmayaraq, Humayı sevir və fikrini bildirmək üçün Gəray bəyin dəstəsinin toplaşdığı “Qaçaqlar dağı”na qalxır.

S.Vurğun Cəlalı Gəray bəyin ayağına aparmaqla, əslində sosrealzimin prinsiplərinə zidd gedir. Gəray bəy ictimai münasibətləri yaxşı dərk edə bilmədiyindən *“xanimanının dağılması”*nın səbəbi kimi Cəlalı görür və sevgisi üçün öz ayağı ilə gələn ideoloji düşmənini öldürür. Humayın özünü öldürməsi isə Gəray bəyin sonunun çatmasına səbəb olur.

Bu dövrdə sinfi düşmən obrazlarının hər zaman mənfi planda verilməsinə baxmayaraq, şairin bu obraza münasibətində müsbət çalarlar vardır. Sinfi düşmən olsa da, komsomolçulara məğlub olmayan Gəray bəy sovet tənqidçilərinin yazdığı kimi, “zalım”, “əzazil” bir adam deyil. Hər şeydən əvvəl, öz ictimai statusunu qoruyan bir bəy, qızını sevən bir atadır. Cəlalı öldürməsi isə ictimai münasibətlərin kəskinliyindən irəli gəlir.

Gəray bəyin komsomolçular tərəfindən öldürülüməməsi də şairin bədii həll üçün, çətin olsa da, ən doğru variantı olur. XX əsrin 30-cu illərində bəy, sinfi, ideoloji düşmən obrazının bu xarakterdə verilməsinin özü ideoloji sapıntı kimi dəyərləndirilə bilərdi. Lakin S.Vurğun digər sinfi obrazlar kimi Gəray bəyin karikaturasını cızmamış, onu gülünc vəziyyətdə, xaraktersiz təsvir etməmişdir. Onun öz yolu, öz yaşayış prinsipləri var, lakin yeni quruluş bu prinsipləri qəbul etmir. O da yeni quruluşu qəbul etmədiyindən dağlara çəkilərək mübarizə aparmağı üstün tutur.

S.Vurğunun digər əsərlərində də dövrün hadisələri olduğu kimi əks etdirildiyindən bir çox ideoloji obrazlara rast gəlmək olur. Müəllif “Macəra”, “Muradxan”, “Xumar”, “Kənd səhəri”, “Ölüm kürsüsü” və b. poemalarında bəzən bir sətirlə də olsa, keçmiş günlərə qayıdır, uşaqlıq dövrünün gerçəkliklərini təsvir edirdi. Bu təsvirlərdə mübarizənin bir tərəfində yeni qüvvələr – komsomolçular, digər tərəfində isə yeni ictimai quruluşun əleyhinə olan, yaxud onu qəbul etməyənlərin obrazı yaradılır.

S.Vurğunun “26-lar” poemasında isə 1918-ci il hadisələri, o

zaman Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz əksini tapır. “Üsyan” poemasında şair yenidən Cümhuriyyət dönəminə qayıdır və dövrün ideoloji mübarizəsini bir kənddə baş verən hadisələr kontekstində əks etdirir. S.Vurğunun “Ölüm kürsüsü” poemasında da bir-birinə qarşı duran iki qüvvə - kommunistlər və onlara meydan oxuyan kapitalizm dünyası göstərilir.

Beləliklə, bu dövrün poeziyasında bir çox obrazların dövrün ideoloji meyillərini özündə əks etdirdiyini görürük. Bu, hər şeydən əvvəl, həmin tarixdə baş verən hadisələrin ziddiyyətliliyindən və bir-birinə qarşı durmasından irəli gəlirdi. İkinci bir səbəb isə ondan ibarət idi ki, həmin hadisələrin üzərindən müəyyən zaman keçmiş və yeni yaranan sovet hökuməti tarixi təhrif edərək həmin hadisələrə ideoloji mövqedən yanaşmışdı.

İkinci fəslin üçüncü paraqrafı “**Poeziyada din və din xadimləri ideoloji düşmən obrazında**” adlanır. Burada qeyd olunur ki, Azərbaycanda bolşevik işğalından sonra ədəbi prosesdə bir müddət durğunluq yaşandı. Bunun əsas səbəblərindən biri yeni cəmiyyətin qurulması, “nədən yazmaq” və “necə yazmaq” suallarına cavab axtarışı idi. İlk vaxtlar sülh missiyası ilə gələn bolşevizm siyasi sahədə özünün iç üzünü göstərməkdə, hər gün yeni ideoloji düşmən obrazlarını nişan verməkdə idi.

Bu illərdə ilk ideoloji düşmən obrazları arasında din xadimləri də var idi. Lakin burada bir məsələni xüsusi qeyd etmək lazımdır. 1920-ci illərə qədər də Azərbaycan ədəbiyyatında və publisistikasında tənqid olunan din xadimlərinin obrazına tez-tez rast gəlinirdi. Lakin 1920-ci illərdə din və din xadimlərinin tənqidinin əsasında ideoloji meyillər dayanırdı.

Bu illərdə yazıb yaradan Məmməd Səid Ordubadi, Əli Nəzmi (Kefsiz) (1878–1946), Əli Razi Şamçızadə (1886–1939), Əliağa Vahid (Nofəl) (1895-1965) və başqa satiriklər şeirlərində ayrı-ayrı din xadimləri ilə yanaşı, dinin özünü də tənqid obyekti kimi götürürdülər. Bu şeirlərdə dinin müəyyən atributları (məscid, ramazan bayramı, mərsiyəxan, qurban bayramı, orucluq və s.) tənqid olunaraq yeni cəmiyyətin quruculuğu fonunda ideoloji maneə kimi görülürdü.

Belə şeirlər yalnız yaradıcılığa yeni başlayanlar, necə deyərlər,

"oktyabrdan doğulanlar" tərəfindən yazılmırdı, hətta Sabirin müasirləri Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Razi kimi şairlərin şeirlərində, ayrı-ayrı felyetonlarda da öz əksini tapırdı.

İlk satirik şeirlərini "Babayi-Əmir" jurnalında dərc etdirən, "Molla Nəsrəddin" jurnalında Nofəl imzası ilə yazan Ə.Vahid 1920-30-cu illərdə də satirik yaradıcılığa sadiq qalmış və bir çox satirik obrazlar yaratmışdır. "Quba meydanı", "İnsan oluram", "Qoçu", "Sür dərəyə", "Dəllalların hiyləsi", "Lotular ocağı" və s. onlarla şeirlərində dövrün ziddiyyətlərini və anomaliyalarını satirik obrazlar vasitəsilə tənqid etmişdir. Bütün satirik şairlər kimi, Ə.Vahid də molla, ruhani, eləcə də bəzi din xadimləri haqqında şeirlər yazmışdır. Lakin indi "Babayi-Əmir" jurnalı yox idi, satirik şeirlərin də hədəfləri dəyişmişdi. İndi satirik şairdən ictimai idealları tənqid etmək yox, tərənnüm etmək tələb olunurdu. Bu mənada Ə.Vahid də yaradıcılığına müəyyən düzəlişlər etməli olur. Şair 1920-ci illərin əvvəllərində yazdığı şeirlərində keçmiş dövrün qəhrəmanlarını satirik ifşa hədəfi edirdi. "Qoçu", "Sür dərəyə", "Acı gülüşlər", "Dəllalların hiyləsi" və s. şeirlərindəki obrazlar daha çox keçmişin "qəhrəmanları" olurdu.

Həmin illərdə M.S.Ordubadinin yazdığı satirik şeirlərdə iki istiqamət başlıca yer tuturdu: birincisi, beynəlxalq aləmin tənqidi, ikincisi, din əleyhinə yazılmış şeirlər. Onun şeirləri, əsasən "Molla Nəsrəddin" jurnalında, "Kommunist" və "Yeni fikir" qəzetlərində dərc edilirdi. Onun bu illərdə dərc edilən şeirlərində həm mollalar, həm də dinə münasibətdə siyasi ölçülər gözlənilirdi. "Mollanın yuxusu" (din əleyhinə) (1929) və "Din əleyhinə şeirlər (1914-1931)" (1937) kitablarında dövrün ideologiyası özünü aydın şəkildə biruzə verirdi.

Beləliklə, 1920-30-cu illərdə satirik şeirlərdə dini rəmzlərin, din xadimlərinin təsvirində ideoloji meyillərin əsas götürüldüyünü aydın görmək olar. Bu, ondan irəli gəlirdi ki, ədəbiyyat həyatın güzgüsü olaraq həyatı olduğu kimi əks etdirirdi. Proletar diktaturasının hökm sürdüyü və xalqın tarixinə, milli-mənəvi dəyərlərinə qarşı total hücum edildiyi bir zamanda ədəbiyyat da bu siyasətin bir parçasına çevrilirdi.

Dissertasiya işinin "**Ədəbiyyatda ideoloji obrazlarin yaradilmasinin yeni forma və təzahürləri**" adlanan üçüncü fəsli dörd paraqrafdan ibarətdir. "**1930-cu illər bədii nəsrində ideoloji**

**obrazlar və tarixi həqiqətin təhrifi"** adlı ilk paraqrafda göstərilir ki, Sovet dövrünün ilk iki onlliyində yazıb-yaradan yazıçılardan Süleyman Rəhimov, Mehdi Hüseyn, Mir Cəlal və başqalarının əsərləri yalnız realist nəsri inkişaf etdirmək, onu forma və məzmunca zənginləşdirmək baxımından deyil, həm də dövrün kollektivləşmə hadisələrini, sinfi ziddiyyətlərini əks etdirmək baxımından əhəmiyyətlidir. Bu mənada Azərbaycan romanının sovet dövründə ilk təməl daşlarını qoyan yazıçılardan biri kimi Əbülhəsənin yaradıcılığı həm də kollektivləşmə dövrünün gerçəkliklərinin təsviri baxımından zəngin material verir.

XX əsrin 20-30-cu illərinin Azərbaycan həyatının ən çətin və ziddiyyətli hadisələri Əbülhəsənin hekayə və romanlarında bədii şəkildə əks olunur. 1920-ci illərin ortalarından "Məhbus" (1925) hekayəsi ilə yaradıcılığa başlayan gənc Əbülhəsən bir qədər sonra "Sofi" (1927), "Öldürdü" (1929), "Boşandı" (1930), "Aras" (1930), "İyirmi bir" (1930) və s. hekayələri ilə ətrafında baş verən ictimai-siyasi hadisələri qələmə aldı. Yazıçı bu hekayələrində yeni ictimai münasibətləri, hadisələri əks etdirməyə çalışırdı.

Müəllif yeni dövrün qəhrəmanı olaraq Sofidə ("Sofi") baş qaldırmış dəyişiklik arzusunu açıq tendensiya ilə deyil, psixoloji yönləri ilə verirdi. Bunun *"qeyri-fəal psixologizm"* (Məmməd Arif) olmasına baxmayaraq, müəllif insanın dəyişməsi kimi incə bir məsələyə toxunurdu. Əbülhəsənin ilk mənfi tipləri, başqa sözlə desək, sinfi düşmən obrazı da məhz bu hekayədə yaranır. O, Sofini cəmiyyət üçün parazit sayır və onun bu cəmiyyətdə qalmasını mümkünsüz hesab edirdi. Yazıçı onu iyirmi ildən bəri ömrünü özü kimi sofı əmisinin dükanında, hücrələrdə, məscidlər küncündə, Məşhəddə, Kərbəlada keçirmiş bir bədbəxt olaraq təsvir edir. Yazıçı həyatda bitərəf olan Sofinin mövqeyi ilə barışa bilmir və onu proletar mövqeyinə çəkmək istəyir.

Əbülhəsənin "Öldürdü" hekayəsinin əsasında da dövrün psixologizmini üzə çıxaracaq hadisə dururdu. Yazıçı burada milyonçu qoca ata ilə gənc oğul arasındakı ixtilafları köhnə dünya ilə yeni dünya arasındakı münasibətlər kontekstində vermək istəmişdir. Atanın təkcə yeni ictimai quruluşa yox, öz oğluna qarşı düşmən mövqedə durmasının ictimai səbəbləri əsaslandırılmışdır. Yeni

quruluş tərəfindən var-dövləti əlindən alınmış ata sahib olduğu mədənləri yandırıb xaricə qaçmağı oğluna təklif etsə də, oğul bundan boyun qaçırmış və yeni cəmiyyət quruculuğunda fəal iştirak etməyi üstün tutmuşdur. Fərzi bununla kifayətlənməmiş, atasından qalmış var-dövləti hökumətə təhvil verərək öz halal zəhməti ilə dolanmağa başlamışdır. Bununla da yazıçı Fərzinin öz keçmişindən imtina etməsini və yeni həyata başlamasını göstərmək istəmişdir. Oğul ata ilə söhbətindən sonra əmin olur ki, atası barışmayacaq: *" Əski ilə yeni nə vaxt barışdı ki?! .. Onun düşməni bir mən deyiləm... O hamıya düşmən, hamını da özünə düşmən hesab edir.. Mən onda bütün yeniliyə, bu hökumətə, bu quruluşa qarşı savrılmaq istəyən nifrət və lənətin bir heykəlini görürəm. O, keçmişin bütün acığını, hirs və qəzəbini özündə toplamış qara bir vücuddur*[43].

Əbülhəsən kollektivləşmə hərəkatı və onun ziddiyyətləri mövzusunu roman yaradıcılığında da davam etdirir. Yazıçının "Yoxuşlar" və "Dünya qopur" romanlarında dövrün reallıqları, mübarizənin çətinlikləri, ziddiyyəti daha geniş miqyasda təsvir edilirdi. Əgər yazıçı hekayələrində ayrı-ayrı adamları öz mühitindən, sinfindən ayıraraq təsvir edirdisə, romanlarında hadisələrin dərinliyinə gedir və ictimai münasibətləri olduğu kimi təsvir etməyə çalışırdı.

Əbülhəsənin "Yoxuşlar" romanında kəndlilərin daha çox kolxozlara axışdığı dövr təsvir olunur və bu proses bir kəndin timsalında göstərilir. Romanda sosializm cəmiyyətinin yenidən qurulması prosesinə geniş yer verilmiş, müsbət obrazlarla yanaşı, ona alternativ olaraq sinfi düşmən obrazları da yaradılmışdır. əsərdə bu mübarizə bəzən mənəvi-əxlaqi, bəzən isə iqtisadi sahədə boy göstərir.

Əbülhəsənin "Dünya qopur" romanında isə kiçik qəsəbə olan Basqal kənd mühitində Cümhuriyyət və ondan sonrakı dövrdə baş verən hadisələr təsvir olunur. Romanda yaradılan obrazların bir tərəfində bolşeviklər, bir tərəfində isə müsavatçılar durur. Bu ona görə belə olmuşdur ki, bolşeviklərin gəldiyi ilk illərdə onlara qarşı duran yeganə siyasi qüvvə müsavatçılar olmuşdur. Əslində bu qüvvələr yalnız müsavatçılardan ibarət deyildi, həm də bütöv xalq və

---

[43] Əbülhəsən, Ə. Boşandı (Hekayələr) / Ə.Əbülhəsən. – Bakı: Azərnəşr, – 1930. – s.83-84

cümhuriyyətçilər idi. Sadəcə o dövrün təbliğatı onları müsavatçılar kimi qələmə verirdi.

Beləliklə, Əbülhəsən yaradıcılığında sinfi mübarizəni əks etdirən onlarla obrazın taleyinin bədiilik baxımından əbədiyaşarılığının şahidi oluruq. Bu obrazlar müəllif tərəfindən sadəcə düşmən olaraq yaradılmamışdır, qarşı-qarşıya duran qüvvələri təmsil edən dünyagörüş kimi ortaya çıxmışdır.

Üçüncü fəslin **"1930-cu illərdə sinfi və ideoloji mübarizənin dramaturgiyada inikası kontekstində "düşmən" obrazları"** adlı paraqrafında göstərilir ki, daxili ideoloji düşmən obrazları sırasında qolçomaq obrazı da başlıca yer tuturdu. Qolçomaqların sinfi düşmən olaraq ədəbiyyatda əks olunması dramaturgiyada realist cizgilərlə verilmişdir.

Azərbaycan dramaturgiyasında qolçomaq obrazı kollektivləşmə hərəkatının dövriyyəyə girməsi ilə ortaya çıxmış, bir çox obrazlar yaradılmışdır. Süleyman Rüstəm və Hacıbaba Nəzərlinin "Yanğın" (1930), Cəfər Cabbarlının (1899–1934) "Almaz" (1931), "Yaşar" (1932), Mirzə İbrahimovun (1911–1993) "Həyat" (1934), Sabit Rəhmanın (1910–1970) "Toy" (1938) və s. əsərlərində sinfi mübarizə, yeniliklə köhnəliyin mübarizəsi prosesi təsvir edilir. "Yanğın" pyesində kolxoz və kollektivləşmə uğrunda sinfi mübarizə meyilləri öz əksini tapır. Əsərdə Şamxor (indiki Şəmkir) rayonunda baş vermiş bir hadisə -"bitdili imamı" adı ilə məşhur olan bir əhvalat qələmə alınmışdır. Müəlliflər əsərdə bəzi satira, komizm elementlərindən də istifadə etmişlər. Sənətşünas alim Mehdi Məmmədov (1918–1985) bu əsəri 1920-ci illərin sonunda Azərbaycan kəndində gedən gərgin sinfi mübarizə ruhu ilə dərindən aşılanmış əsər kimi xarakterizə edir və: *"yeni həyat düşmənlərinə, qolçomaqlara və onların əlaltılarına, ruhanilərə və qeyri-din maskası taxmışlara qarşı çevrilmiş satirik komediyadır"*[44], – qənaətinə gəlir. Əsərin satirik komediya olması fikri ilə razılaşmasaq da, doğrudan da, "Yanğın" sinfi mübarizəni əks etdirən və qolçomaq personajını ilk dəfə ədəbiyyata gətirən əsərlərdən biri kimi diqqəti cəlb edir.

[44] Məmmədov, M. Həyat və sənət yollarında / M.Məmmədov. – Bakı: [n.y.], – 1965. –s.143

Cəfər Cabbarlı “Almaz” əsərində yeni sosialist kəndi uğrunda gedən mübarizəni, cəmiyyətdəki ziddiyyətləri əks etdirir və kollektivləşməyə qarşı duran qüvvələri göstərərək Almaz obrazını yeni ideyalar və yeni gələcək uğrunda mübarizənin rəmzi olaraq verirdi.

Konfliktin digər qütbündə duran qolçomaq Hacı Əhməd isə keçmişə söykənir, mühafizəkar və mövhumatçı qüvvələri başına yığıb kolxoz hərəkatına qarşı mübarizə aparır. Bu mübarizə konfliktin əvvəlində örtülü, sonralar isə açıq müstəvidə davam edir.

Ümumiyyətlə, C.Cabbarlının bir çox dram əsərlərində müasir dövr hadisələri təsvir olunsa da, müəllif siyasi konyukturaya getmir, mövzunu yeni-köhnə müstəvisi ilə davam etdirirdi. Tənqidçi Ə.Nazim əsəri müəllifin sosializm realizminə doğru atdığı mühüm bir addım hesab edərək yazırdı: *“Almas” C.Cabbarlının sovet kəndi və kollektivləşmə prosesində sovet ziyalılarının rolu mövzusuna keçməsi demək idi”* [45]. Bu əsərlə C.Cabbarlının mümkün qədər sovet mövzusuna, sosializm quruculuğuna yaxınlaşdığını sübut etmək istəyirdilər. Lakin C.Cabbarlı əvvəlki əsərlərində olduğu kimi, burada da dövrün ziddiyyətlərini göstərmək istəmişdir.

C.Cabbarlının “Yaşar” dramında da “Almaz” əsərindəki problemlər müstəviyə qoyulur. 1930-cu illərdə kolxoz, kollektivləşmə uğrunda gedən proseslər bir qədər fərqli dramaturji konflikt və bədii personajlarla təqdim olunur. Müasir həyat hadisələrinin əsərin əsas konfliktini təşkil etməsi onun funksionallığını daha da artırmış olur. Burada da dramaturq həm dövrün, həm də yeni quruluşa qarşı duran insanların canlı obrazını yarada bilir.

Mirzə İbrahimovun “Həyat” pyesində də sosializm quruculuğunun müəyyən bir dövrü əks etdirilir. Azərbaycanın uzaq rayonlarından birinə göndərilən Həyat MTS siyasi şöbəsinə rəis təyin edilir və burada MTS direktoru Həsənov ilə açıq mübarizə aparır. Bu cəhətdən həm pyesin konflikti, həm də Həyatın həyat və fəaliyyət qaydaları C.Cabbarlının “Almaz” pyesi ilə səsləşir. Bu

---

[45] Nazim, Ə. Seçilmiş əsərləri / Ə.Nazim. – Bakı: Yazıçı, – 1979. –s.226

cəhətdən ədəbiyyatşünas Məmməd Arifin *"Həyat Almazın bacısıdır"* [46] fikrində böyük bir həqiqət vardır.

Sabit Rəhmanın "Toy" komediyasında da sinfi mübarizənin müəyyən bir mərhələsi təsvir olunur. Lakin burada hadisələr satirik kontekstdə göstərildiyindən ideoloji meyillər bir qədər zəif təsir bağışlayır. Həm də tarixi şərait əvvəki kimi deyildi, C.Cabbarlının təsvir etdiyi kütləvi kollektivləşmə prosesi artıq sona çatmışdı. S.Rəhmanın bu əsərində satirik boyalara müraciət etməsinin bir səbəbi də ideoloji düşmən obrazlarına meyl etməməsindən irəli gəlirdi.

Beləliklə, XX əsrin 20-30-cu illərində Azərbaycan ədəbiyyatında qolçomaq obrazlarının sinfi düşmən kontekstində yaradıldığını görürük. Bu cür obrazların yaradılması bir tərəfdən ictimai ziddiyyətləri əks etdirirdisə, digər tərəfdən təbliğat xarakteri daşıyırdı.

Üçüncü fəslin üçüncü paraqrafı "**Ədəbi tənqidin ideoloji düşmən obrazına baxışı və dəyərləndirmə problemləri"** adlanır. Göstərilir ki, 1920-ci illərin ortalarından başlayaraq tənqid intensiv şəkildə ədəbi prosesi izləməyə, yaranan yeni əsərlər haqqında rəylər yazmağa başlamış və bu missiyanı ədəbiyyatşünaslığa ötürmüş, bu kontekstdə İsmayıl Hikmət (1889–1967), Əmin Abid, Hənəfi Zeynallı, Əli Nazim, Bəkir Çobanzadə, Salman Mümtaz (1884–1937), Mustafa Quliyev, Atababa Musaxanlı (1905–1941), Məmməd Kazım Ələkbərli (1905–1938) və başqalarının ədəbiyyatın nəzəri və praktik problemlərinə aid araşdırmaları ortaya çıxmışdır. Bu zaman ədəbi hadisələrin və proseslərin dəyərləndirilməsində metodoloji və ideoloji meyillər də özünü göstərirdi. Ədəbiyyatşünas Nizaməddin Şəmsizadə bu dövrün ədəbiyyatşünaslığı haqqında yazırdı: "*Bu dövrün ədəbiyyatşünaslığının simasını proletar ədəbiyyatı və proletar sənətinin mənafeyi mövqeyindən klassik irsə münasibət müəyyən edirdi. Bu mənada həmin illərin ədəbiyyatşünaslığını proletar ədəbiyyatşünaslığı – marksist ədəbiyyatşünaslıq adlandırmaq*

[46] Arif, M. Cəfər Cabbarlının yaradıcılıq yolu / M.Arif. – Bakı: ADU-nun nəşriyyatı, – 1956. –s.325

*olar*”[47].

B.Çobanzadənin “Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə” adlı kitabında da müasir ədəbiyyata yanaşmada ideoloji meyillər əsas götürülmüşdür. Tədqiqatçı Azərbaycan ədəbiyyatının yeni dövrünü 1905-ci il inqilabından sonrakı müddətə şamil edərək bundan sonrakı ədəbiyyatı tamamilə ideoloji meyarlarla qiymətləndirməyi üstün tutur. Əsərin girişində müəllif ədəbiyyatın sinfi mahiyyətini qabardaraq yazırdı: “*Aldığımız dövrdəki ədəbi inkişafın sinfi mahiyyəti bizim üçün imdidən aydındır. Bu dövrdə azəri ədəbiyyatı “millətçilikdən internasionalizmə doğru” inkişaf etməkdədir. Yəni burjuaziya ədəbiyyatı olmaqdan çıxıb proletar ideologiyasına xidmət edən ədəbiyyat halına gəlməkdədir*” [48].

B.Çobanzadə ən yaxın dövrün ədəbiyyatının dövrləşdirilməsinə də ideoloji baxımdan yanaşaraq bu dövrün ədəbiyyatını iki yerə bölür: müsavat ədəbiyyatı və oktyabr dövrü ədəbiyyatı. Bu dövrün “müsavat ədəbiyyatı” adlandırılması rəsmi ideologiyadan irəli gəlirdi. B.Çobanzadə müsavat ədəbiyyatı adı altında Əhməd Cavad (1892–1937) və Hüseyn Cavid (1882-1941) yaradıcılığını təhlilə cəlb edirdi. B.Çobanzadə oktyabr ədəbiyyatı ilə bağlı geniş araşdırma aparır, onun xarakterini açmağa çalışır, “*aprel inqilabı*”ndan sonra təşəkkül tapdığına diqqət çəkir, bolşevik ideologiyasının tezislərini özündə cəmləşdirən yeni ədəbiyyatın sərhədlərini cızır.

Bu cəhətdən Ə.Nazimin “Azərbaycanda marksizm tənqidində mexanisizm və liberal görüşlər əleyhinə” və “Türk ədəbiyyatşünaslığında pantürkzim və kamalizm əleyhinə” məqalələri ideoloji yönü ilə diqqəti cəlb edir. Hər iki məqalədə dövrün xarakteri və bolşevik hakimiyyətinin ədəbi siyasətinin ideoloji yönləri bütün parametrləri ilə açılır. İki hissədən ibarət olan birinci məqalə tənqidçi M.Quliyevin “Oktyabr və türk ədəbiyyatı” adlı kitabı haqqındadır.

---

[47] Şəmsizadə, N. Seçilmiş əsərləri: [3 cilddə] / N.Şəmsizadə. – Bakı: Elm, – c.1. – 2008. –s.303

[48] Çobanzadə, B. Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə / B.Çobanzadə. – Bakı: ADETİ-nin nəşriyyatı, – 1930. – s.6

Ə.Nazim M.Quliyevin kitabını təhlil edərkən burada siniflər və sinfi mübarizənin olmamasından şikayətlənirdi. Tənqidçi tərəfindən M.Quliyevin klassik ədəbiyyata, milli-mədəni irsə münasibətində ideoloji boşluqların tapılması onun üçün ölüm hökmünü labüd edirdi.

Ə.Nazimin "Türk ədəbiyyatşünaslığında pantürkizm və kamalizm əleyhinə" adlı məqaləsində başqa bir ideoloji cəbhə açılır. Tənqidçi ədəbiyyatşünaslığımızda olan "ideoloji", "sinfi" münasibətləri aydınlaşdırmağa çalışaraq A.Musaxanlı, Ə.Abid, B.Çobanzadə, M.F.Köprülüzadə (1890–1966) və İ.Hikmət kimi ən çətin bir dövrdə Azərbaycan ədəbiyyat tarixçiliyi istiqamətində fundamental araşdırmalar aparan ədəbiyyatşünasların ədəbi görüşlərindəki ideoloji meyilləri tənqid edir, onların marksist ədəbiyyatşünaslığı maskası altında burjua ədəbiyyatşünaslığına xidmət etdikləri iddiasını irəli sürür. Tənqidçinin 1930-cu illərin əvvəllərində bu iddianı irəli sürməsi siyasi proseslərdən qaynaqlanırdı. Belə ki, bu ədəbiyyatşünasların ikisi (İ.Hikmət və M.Köprülüzadə) türk idi, digərlərinin (Ə.Abid, B.Çobanzadə və A.Musaxanlı) yaradıcılığında da türk amili qabardılırdı.

Tənqidçi Mustafa Quliyevin "Ədəbiyyat cəbhəsində mübarizə" (Voronskiçilik əleyhinə) məqaləsində də ədəbiyyatşünaslığa ideoloji yanaşma özünü göstərir. Pereverzevçilik kimi voronskiçilk də ideoloji təmayül olaraq milli sahənin deyil, Rusiya ədəbiyyatşünaslığının problemi olsa da, burada da ona münasibət bildirilirdi. Tənqidçinin voronskiçilk əleyhinə belə bir məqalə yazmasının əsas səbəbi bu və bunun kimi ideoloji meyillər hesab olunan digər "izm"lərin milli ədəbiyyatşünaslığa gəlməsinin qarşısını almaq olmuşdur. M.Quliyev voronskiçiliyi "*türk ədəbiyyatından qovmalı*", "*voronskiçiliyi türk ədəbiyyatından süpürməli*", "*türk ədəbiyyatında Voronskinin fikirlərini təkrar etməyə meyil göstərən sağ təmayülçüləri təmizləməli, onları ifşa etməli*" [49] kimi fikirlər səsləndirsə də, məqalə boyu bir voronskiçinin adını belə çəkə

[49] Quliyev, M. Ədəbiyyat cəbhəsində mübarizə (Voronskiçilik əleyhinə) // – Bakı: İnqilab və mədəniyyət, – 1931. №1, – s.24

bilmir.

Mehdi Hüseynin "Ədəbiyyatşünaslıqda menşevizm əleyhinə" məqaləsində də Rusiya ədəbi prosesindəki ideoloji meyillərin milli ədəbi mühitə keçmə ehtimalları təhlil edilir. Gənc tənqidçi marksizm inqilabi nəzəriyyəsi ilə silahlanmış kommunistlərin cəmiyyətdəki yabançı sinfi təmayüllərə münasibətini ifadə edir.

Bütün bunlar onu göstərirdi ki, ideoloji meyil sovet sistemi boyu ədəbiyyatı, incəsənəti, bədii düşüncəni əhatə etmiş, 1960-70-ci illərdə, hətta 80-ci illərdə də qismən də olsa, mövcudluğunu qoruyub-saxlamışdır.

Üçüncü fəslin "**İdeoloji kontekstdə formalaşdırılan yazıçıların "xalq düşməni" obrazı"** adlanan son paraqrafında sovet dövründə milli mühitdə "xalq düşməni"nin axtarılması və ideoloji cəbhədə "xalq düşməni" obrazının yaradılması məsələləri araşdırılır. Göstərilir ki, Azərbaycanı bolşevik idarəetməsindən sonra ədəbi həyatda da sabotajçılar, xalq düşmənləri ideoloji yarlıqları axtarılır və müxtəlif zamanlarda müxtəlif adlar altında onları "ifşa etməyə" nail olurdular. Əvvəlcə bu proses köhnələr-yenilər kontekstində başladı. Bu mübarizə bir müddət "Gənc qızıl qələmlər" ilə "Yaşıl qələmlər"in mübarizəsi kimi davam etdi. Daha sonra proletar hegemoniyasının genişlənməsi proletar ədəbiyyatının tərəfdarlarının güclənməsinə, köhnələrin bir qədər ədəbi sahədən sıxışdırılıb çıxarılmasına səbəb oldu.

18 iyun 1925-ci il tarixli "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" qətnamə nəticəsində ədəbi mühitdə olan yazıçı və şairlər üç qrupa bölündü: proletar yazıçıları, burjua-qolçomaq yazıçıları və cığırdaşlar. 1928-ci ildə Azərbaycan Proletar Yazıçılarının birinci, bir il sonra isə ikinci qurultaylarının çağrılması yeni siyasi xəttin ədəbiyyat üzərində möhkəmlənməsini artırmış oldu. Yazıçıların ədəbi cəmiyyətlərdə sinfi mövqeyi və ideoloji istiqaməti baxımından qərar tutması bu prosesi bir qədər də sürətləndirir. Ədəbiyyatşünas Nazif Qəhrəmanlı bu dövrdə ədəbiyyatın ideologiyaya xidmət etməsinə diqqət çəkərək yazır: *"Bu dövrdə (1920-30-cu illər nəzərdə tutulur - N.Ə.) nəinki mənəviyyat və əxlaq, hətta təsərrüfat və əxlaq da ideologiyaya tabe edilmişdi. Belə bir şəraitdə ədəbi cəmiyyətlərin fəaliyyəti nəzarətsiz*

*qala bilməzdi. Odur ki, ərzaq sapalağı və yeni iqtisadi siyasət kimi əcaib islahatlar və sovetləşmə şüarları elliklə təşkilatlanma qənaətinə gətirib çıxartdı ki, bu da fəhlə-kəndli müxbirlərinin, ədəbiyyata dəxli olmayan şəxslərin zorla ədəbiyyata gəlişini təmin etdi”* [50].

1934-cü ildə Azərbaycan Şura Yazıçıları İttifaqının yaranması ilə bütün yazıçılar bir çətir altına daxil oldu. Sistemin ədəbi sahəni ələ keçirməsi və onu idarə etməsi yazıçılar arasında bir-birinə qarşı inamsızlığı ortaya çıxarır, mübarizəni şərtləndirir və yazıçılların özü də bir neçə cəbhəyə bölünürdü. Xüsusilə, sosialist cəmiyyətindən əvvəlki dövrdə yazıb-yaradan yazıçılar tənqid hədəfinə tuş gəlir, bu müəlliflərə yeni platformaya keçid təklif edilirdi. Yeni quruluşu tərənnüm etməyən, yaxud etmək istəməyən yazarlara qarşı əks cəbhə formalaşdırılır və qarşı tərəf düşmən kimi qələmə verilirdi.

1920-ci illərdə H.Cavid və Ə.Cavada keçmişləri ilə bağlı edilən hücumların əsasında da məhz onların durduğu platformaların qəbul edilməməsi dayanırdı. Əslində sonradan xalq düşməni kimi repressiya olunacaq H.Cavid, Ə.Cavad, Y.V.Çəmənzəminli (1887–1943), M.Müşfiq, Ə.Abid, Ə.Nazim, H.K.Sanılı (1878–1938) və başqaları, otuza qədər yazıçı, şair və tədqiqatçı açıq şəkildə sovet hökumətinin əleyhinə çıxmamışdılar. Ancaq dövlət ideologiyası bütün sahələrdə (ideoloji, siyasi, iqtisadi, mədəni və s.) olduğu kimi, ədəbiyyat sahəsində də daim bu cür “düşmən” axtarışını davam etdirirdi.

Bu yolda ideoloji cəhətdən ən çox tənqidə məruz qalan isə H.Cavid və Ə.Cavad idi. H.Cavid İranda, Türkiyədə təhsil almışdı, Ə.Cavadın müsavat, Y.V.Çəmənzəminlinin də mühacir keçmişi var idi. Gənc M.Müşfiqi isə Ə.Cavadın yolunu davam etdirməkdə günahlandırırdılar. Bütün bunlar yazıçı mühitində ideoloji suçlamalar üçün bəhanə axtarışından başqa bir şey deyildi.

Siyasi həyatda cəbhələşmə artdıqca, ədəbi mühitdə də münasibətlər kəskinləşirdi. 1937-ci ilin mayında dörd gün davam

[50] Qəhrəmanlı N. Azərbaycanda ədəbi cəmiyyətlər (1920-30-cu illər) / N.Qəhrəmanlı. – Bakı: Elm, 2006. – s.4-5.

edən XII Bakı partiya konfransında Mir Cəfər Bağırov (1895–1956) Yazıçılar İttifaqını hədəfə götürərək H.Cavid, Ə.Cavad, M.Müqşfiq, Ə.Nazim, B.Talıblı, T.Ş.Simürg, Ə.Triniç (1893–1936) kimi yazıçıların ifşa edildiyini bildirir. 1937 -1938-ci illərdə Azərbaycan ədəbi mühitinin otuza qədər üzvü “xalq düşməni” adı ilə ya həbs edildi, ya güllələndi, ya da Sibirə göndərildi. Bu hadisələrdən dərhal sonra onların cəmiyyətdə “xalq düşməni” obrazı formalaşdırılır. Lakin ən maraqlı cəhət budur ki, yazıçıların “xalq düşməni” axtarışları zamanı çoxlu məqalə, şeir yazılsa da, sonralar bədii ədəbiyyatda onların “xalq düşməni” obrazı yaranmamışdır. Bu isə ona görə belə olmuşdur ki, həbs dövründə bu təbliğat kampaniya xarakteri daşıyırdı, yazıçı yoldaşlarının əleyhinə iclaslarda, ya da qəzetlərdə çıxış edənlər məcburən bu kampaniyaya qoşulmuşdular. Lakin bu kampaniya bitdikdən sonra həbs olunanların günahsızlığını dərk etmiş və əsərlərində “xalq düşməni” obrazını yaratmamışlar. Yalnız 1956-cı ildə onlara bəraət verildikdən sonra əsərləri nəşr edilmiş, haqqında məqalələr yazılmış və bədii əsərlərdə obrazları yaradılmağa başlamışdır.

Beləliklə, həyatın bütün sahələrində olduğu kimi, ədəbiyyat sahəsində də “xalq düşməni” yarlığı öz işini görmüşdür. Əgər yazıçı və şairlər bu yarlığı bədii əsərlərində göstərirdilərsə, bu dəfə özləri həmin yarlıqla həbs edilmiş, haqlarında uydurma ittihamlar səsləndirilmiş, ölümə məhkum edilmiş, həbs və sürgünə göndərilmişlər.

Dissertasiyanın **“1940-60-cı illər Azərbaycan ədəbiyyatında ideoloji düşmən obrazları”** adlı dördüncü fəslinin ilk paraqrafı **“Müharibə dövründə ideoloji mübarizə formalarının təzahürü”** adlanır və burada göstərilir ki, İkinci Dünya müharibəsi dövründə yazılan şeirlərdə, hekayələrdə və publisistik məqalələrdə daha çox faşizmin məhv olacağına inam bəslənilirdisə, müharibədən sonra vurğu bir qədər dəyişmişdi.

Məlumdur ki, S.Vurğun müharibənin ilk günündən özünün müharibə dövrü platformasını elan etdi və bunun ardınca xalqın müdafiə əzmini göstərən bir çox şeirlər və məqalələr yazdı. Bu şeirlərdə iki ideya həmişə özünü göstərirdi; birincisi, sovet xalqının qələbəsi, ikincisi Azərbaycan xalqının şücaəti. S.Vurğun

müharibədə iştirak edən ayrı-ayrı qəhrəmanlara şeir yazmaqla yanaşı, həm də burada baş verən fəlakətləri yaxşı görür və bunun səbəblərini araşdırmağa çalışırdı. Şairin dramatik poema adlandırdığı, 1943-cü ildə yazdığı, lakin tamamlamadığı "Hürmüz və Əhrimən" əsərinin mövzusu "Avesta"dan götürülərək xeyirlə şərin əzəli və əbədi mübarizəsi ideyasını əks etdirirdi. Burada əsas məsələ Azərbaycandan bəhs edilməsi və onun ən qədim bir xalq kimi daim xeyiri təmsil etməsi idi.

S.Vurğunun bu əsərinin tənqidlə qarşılanmasının əsas səbəbi müharibə getdiyi zaman Azərbaycanın tarixinə müraciət idi. Bunu bəzən mücərrədlik kimi də qələmə verirdilər. Bu poema yeni bir tendensiyanın gəlişindən xəbər versə də, hələ ədəbi mühit tam olaraq ideoloji sistemdən qopmamışdı. Ona görə də, şairin ədəbi mühitdə olan nüfuzuna baxmayaraq, bu yeniliyi qəbul etmək istəmirdilər. Şairin yaradıcılığına ideoloji basqılar "İnsan" dramının yazılmasından sonra daha sistemli və davamlı xarakter alır.

S.Vurğunun əsərində mücərrədlik axtaranlar eynilə Sabit Rəhmana da ideoloji mövqedən hücuma keçirdilər. S.Rəhman "Aşnalar" komediyasında müharibəyə getməyib arxada qalaraq vətənə ziyan vuran adamların obrazını yaratmağa çalışmışdı. Bu komediyada "məslək və vicdan oğruları"nın tənqidinə başqa məna verildiyi üçün əsər qərəzli tənqid atəşinə tutuldu.

Müharibədən sonrakı illərdə ədəbiyyatın 1920-30-cu illər xəttindən kənara çıxması ideoloji sistemin diqqətindən yayınmadı və ədəbiyyatın diqqətini bəzi mövzulara yönəltdi. Mərkəzi Komitənin "Leninqrad" və "Zvezda" jurnalları ilə bağlı qəbul olunan qərarında bu jurnallarda dərc edilmiş iki görkəmli yazıçının əsərlərinə diqqət çəkilirdi. Bunlar Anna Axmatova (1889–1966) və Mixail Zoşşenko (1894–1958) idi. Qərarda hər iki sənətkarın həyat həqiqətlərindən, xalqın və dövlətin mənafeyindən uzaq düşmüş sənətləri kəskin tənqid olunur və onları sosialist realizmi çərçivəsinə qayıtmağa dəvət edirdilər.

Çox keçmədi ki, Azərbaycanda da zoşşenkoçuluq, axmatovşinalıqla məşğul olan yazıçıları "tapdılar". Yaradıcılığa yenicə başlayan Əzizə Cəfərzadənin (1921–2003) 1948-ci ildə

çapda olan ilk “Hekayələr” kitabı geniş oxucu kütləsinə çatdırılmadan məhv edildi. Əsas səbəb isə kitabın mövcud ideologiyaya uyğun gəlməməsi, müəllifin salon ədəbiyyatına meyil etməsi göstərilirdi.

Hətta Mikayıl Rəfilinin (1905–1958) Midiya dövrü tədqiqatlarında da sinfi əlamətlər axtarılırdı. Həmid Araslı (1909–1983), Əliəjdər Seyidzadə (1899–1970), Feyzulla Qasımzadə (1898–1976) kimi tədqiqatçılar ayrı-ayrı dövrlərin ədəbiyyat tarixlərinin yazılmasında bu mövqeyi gözləmədikləri səbəbindən tənqidə məruz qalırdılar.

İctimai fikirdə qərbçilik meyillərinin axtarılması Azərbaycan ictimai fikrinə də böyük zərbə vurdu və fiziki itki ilə qarşılandı. Azərbaycan ictimai fikrinin görkəmli tədqiqatçısı, filosof Heydər Hüseynovun (1908–1950) yaradıcılığı yenidən təftiş olunmağa başladı. Onun “M.F.Axundovun fəlsəfi görüşləri” (1938), “XIX əsr Azərbaycan ictimai fikir tarixindən” (1949) monoqrafiyaları ideoloji meyillər kontekstində yenidən nəzərdən keçirildi. Xüsusilə, Şimali Qafqaz hərəkatının lideri Şamil haqqında fikirləri ideoloji basqıya məruz qalaraq, XIX əsrdə ictimai fikrin inkişaf yolu ilə bağlı tədqiqatında müridizm hərəkatının tədqiqi onun təbliği kimi dəyərləndirildi.

İdeologiyanın bədii düşüncəyə təzyiqinin ən böyük nümunəsi “Kitabi-Dədə Qorqud” dastanının qadağan olunmasıdır. 1940-cı illərdə başlayan bu proses partiyanın ədəbiyyat haqqında qərarlarından başlayaraq kulminasiya mərtəbəsinə çatdı. Dastan 1952-ci ildə qadağan olundu. Bu qadağanın əsas səbəbi kimi dastanın “milli ədavəti qızışdıran” bir kitab kimi dəyərləndirilməsi olmuşdur. Ədəbiyyatı ideologiyanın bir parçasına çevirmək cəhdləri 1940-50-ci illərdə ən kəskin şəkildə davam edirdi.

Dördüncü fəslin ikinci paraqrafı “**Həyat həqiqəti və bədii gerçəkliyin yeni sərhədləri”** adlanır və burada qeyd olunur ki, 1960-cı illərdə tarixi həqiqətlə bədii gerçəkliyin münasibətindəki qismən mütərəqqilik siyasi proseslərdən qaynaqlanırdı. Lakin burada da siyasi rejim hadisələrə düzgün istiqamət vermir, indiyədək baş vermiş fəlakətləri ayrı-ayrı şəxsiyyətlərin adına yazmaqla siyasi sistemi təmizə çıxarırdı.

1950-ci illərin ortalarından sovet cəmiyyətində başlayan islahatlar ictimai və siyasi həyatda böyük bir rezonans doğurdu. Ümumittifaq miqyasında gedən ictimai-siyasi hadisələrlə yanaşı, Azərbaycanda baş verən milli oyanış da ədəbi prosesə öz təsirini göstərirdi. Bu proses ziyalıların diqqətini Azərbaycan əlifbasına və Azərbaycan dilinin statusuna yönəldir, 1956-cı ilin avqustunda dövlət dilinin Azərbaycan dili olması qərarı bütün respublika əhalisi arasında razılıqla qarşılanır.

Milli yöndə baş verən hadisələrdən biri də XX əsrin əvvəllərində Qafqazda və Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətməsi hadisəsinə münasibət məsələsi idi. Ermənistanda baş verən qanlı qırğınlardan sağ çıxan Əyyub Abbasov (1905-1957) 1950-ci illərdə yazdığı “Zəngəzur” romanında bu hadisələrdən bəhs edirdi.

Bu illərdə tarixi hadisələrə münasibətdə yeni baxışlar ortaya çıxırdı. Gülüstan və Türkmənçay müqavilələri xalqa sülh müqaviləsi kimi təbliğ edilərkən 1950-ci illərin milli özündərk prosesi kontekstində Bəxtiyar Vahabzadə (1925–2009) “Gülüstan” poemasını yazır. 52 benddən ibarət olan və vahid süjet xəttinə malik olmayan poemada XIX əsrin əvvəlləri Rusiyanın Azərbaycanın ayrı-ayrı xanlıqlarını zəbt etməsi və daha sonra bu prosesin Gülüstan müqaviləsi ilə yekunlaşması təsvir edilirdi.

Beləliklə, 1960-70-ci illərdə bədii düşüncənin əvvəlki siyasi-ideoloji xətt üzrə inkişaf etdiyini söyləmək çətindir. Doğrudur, partiya, inzibati orqanlar yaradıcı təşkilatlara müxtəlif vasitələrlə təsir etməyə çalışırdı. Ancaq ümumittifaq ədəbi prosesində müşahidə olunan canlanma, həm dünya ədəbiyyatı ilə tanışlıq, müəlliflərin yeni düşüncə tərzi bunun qarşısını kəsirdi. Artıq yuxarıdan gələn direktivlərin ədəbiyyata təsir imkanları azalmış, yazıçıların üzərindən repressiya xofu çəkilmişdi.

Fəslin üçüncü paraqrafı **“Xalq düşməni” obrazlarının bəraətinin ədəbiyyatda əksi”** adlanır. Burada göstərilir ki, mürəkkəb və ziddiyyətli struktura malik repressiyanın ədəbiyyatda təsviri də mürəkkəb yol keçmişdir. Çünki repressiyadan üzü bəri təxminən əlli ilə yaxın vaxt keçsə də, onun tam araşdırıldığını söyləmək doğru olmazdı. Bunun əsas səbəblərindən biri də

repressiyanın hakim siyasi sistemin öz ölkəsinin vətəndaşları ilə ideoloji mübarizəsinin nəticəsi olmasıdır. Bu baxımdan Azərbaycanda repressiyanın tarixini 1920-ci illərdən- bolşeviklər tərəfindən işğal və kommunist ideologiyasının bərqərar olması ilə başlamaq lazım gəlir. Bununla belə, bu repressiyaların xarakterinin getdikcə dəyişməsi və müxtəlif şəkildə təzahür etməsini də unutmaq olmaz.

Azərbaycan bədii nəsrində repressiya hadisələrini təsvir edən ilk əsər Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" romanıdır. Roman 1960-cı illərin əvvəllərində yazılmışdır. Bu zaman artıq repressiyanın üzərindən qara pərdə götürülsə də, onun mahiyyətini bütün reallığı ilə dərk etmək çətin idi, dövrün təsvirinin özünəməxsus çətinlikləri buna imkan vermirdi. Buna baxmayaraq, roman, hətta bugünün meyarları baxımından repressiyanın mahiyyətini təsvir etməklə kifayət qədər məsələlərə aydınlıq gətirir. Romanda müharibədən sonrakı Azərbaycan həyatı, ideoloji basqılar və bir çox ziyalıların bu təzyiqlərə qarşı zəif də olsa, mübarizəsi göstərilir. Ancaq təəssüf ki, ədəbi tənqid və sonrakı ədəbiyyatşünaslıq bu əsərin əhəmiyyətini doğru-düzgün əks etdirməmişdir. Görünür, bu əsərdən sonra uzun müddət bədii nəsrin mövzuya qayıtmamasının əsas səbəblərindən biri də rəsmi ideologiyanın tərəfdarlarının repressiyanın mahiyyətinin açılmasına hələ hazır olmamaları idi.

Bədii ədəbiyyatda "ideoloji düşmən" ittihamı ilə repressiya olunanların obrazı da yaradılmağa başlanır. Rəsul Rzanın "Qızılgül olmayaydı" poemasında 1937-ci il repressiyasının qurbanı kimi görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin obrazı seçilsə də, ümumən, repressiyanın bədii mənzərəsi yaradılır və ədəbi mühitin üzərində hələ də "Damokl qılıncı" tək qalan repressiya xofunu qismən aradan götürür.

Poema iki cəhətdən önəmli görünür; birincisi, 1930-cu illərin realist-romantik təsvirinin verilməsi, ikincisi, repressiya olunanların (burada Mikayıl Müşfiqin) xalq düşməni olmamasının əsaslandırılması. Şairin həyat yoldaşı Dilbər xanımla mükalimə şəklində yazılan poemada 1930-cu illər ədəbi mühiti, müəllifin şairlə dostluğu, keçirdiyi günlər, oxucularla görüşləri poetik

şəkildə təsvir edilir.

Bütün bunlar onu göstərirdi ki, artıq "Xruşşov ottepeli" Azərbaycan ədəbi mühitinə də öz təsirini göstərmişdi. Ədəbi mühit nəinki əvvəlki ideoloji meyillərdən yaxa qurtarmağa çalışır, hətta bu meyillərin doğru olmadığını bir çox əsərləri və obrazları ilə sübut etməyə çalışırdı. Maraqlıdır ki, 1930-cu illər repressiyası haqqında ilk əsərlər də məhz bu illəri yaşamış yazıçı və şairlər tərəfindən qələmə alınırdı. Həm M.Hüseyn, həm R.Rza 1930-cu illəri yaşamış, çoxlu yazıçı və şair dostlarını itirmişdilər. Buna görə ilk əsərlər də onların müəllifliyi ilə ədəbiyyata gəlmiş və bu əsərlərdə "xalq düşməni" adı ilə məhv edilən sənətkarların əslində vətəni sevmələri, xalq tərəfindən sevilmələri reallıqla əks etdirilmişdir.

Fəslin sonuncu paraqrafı "**İdeoloji obrazların mənfi və müsbət qəhrəmanlarda qütbləşməsi**" adlanır və burada baş vermiş ictimai-siyasi proseslər kontekstində 1950-ci illərin sonu-60-cı illərin əvvəlləri ədəbiyyatın yeni bir mərhələyə daxil olması qeyd olunur. Göstərilir ki, bu mərhələdə ideoloji baxımdan azad olmağa çalışan ədəbiyyat üç istiqamətdə öz inkişafını tənzimləməyə çalışırdı:

1. Hələ də bəzi yazıçı və şairlər öz mövzularını iyirmi-otuz il əvvəlki qayda ilə davam etdirir, obrazları, əsərin konfliktini bu istiqamətdə qururdu. Bu cür mövzular oxucular tətəfindən maraqla qarşılanmasa da, rəsmi dairələrdə təqdir edilirdi; 2. Əsasən ədəbi prosesə yeni gələn və ictimai-siyasi proseslərdən dərs götürən bir çox şair və yazıçılar yeni mərhələdə yeni və müasir mövzulara müraciət edir və obrazları müsbət-mənfi istiqamətində qurur və əvvəlki yanaşmalardan tamamilə kənara çıxırdılar; 3. Hər iki istiqamətdən imtina edən bəzi yazıçılar isə əsas diqqəti tarixi mövzulara yönəldir və özünüifadəni bu istiqamətdə görürdülər.

Süleyman Rəhimovun "Şamo" romanının ilk cildi 1930-cu illərdə nəşr edilmişdi. Romanın strukturu da məhz bu illərdə qoyulmuş, əsərin konflikti və obrazlar dövrün ideologiyasına uyğun olaraq formalaşdırılmışdır. Lakin aradan illər keçdikdən sonra müəllif əsərdəki hadisələrin sonrakı inkişafını, obrazların taleyini izləməyi əsas götürmüş və mövzunu davam etdirmişdir.

Romanın üçüncü cildi 1964-cü ildə nəşr edilmişdir. Yazıçı romanı bundan sonra da davam etdirmiş və ümumilikdə dörd cilddə nəşr etdirərək, nəticədə roman-epopeya yaratmışdır. Lakin elə bu müddətdə həyat çox dəyişmişdir; bu dəyişiklik xüsusilə yazıçının həyatdan götürdüyü obrazlara münasibətdə özünü göstərmişdir. Bəlkə də, buna görə yazıçı ən çox sevdiyi Şamonu hadisələrin son mərhələsində öldürüb, mənfi qəhrəmanı Sultanı isə mühacirətə göndərmişdi. Bəlkə, yazıçı bununla bolşevik ideyalarına tapınan qəhrəmanın elə ideologiyanın qurbanı olduğu ideyasını vermək istəmişdir.

Əbülhəsən Ələkbərzadənin yaradıcılığında da eyni proses baş vermişdir. O da 1930-cu illərdə qələmə aldığı iki romandan birini – "Yoxuşlar"ı 1960-cı illərdə davam etdirmişdir. Doğrudur, müəllif əsəri yenidən işləyərkən əvvəlki kimi obrazları iki yerə – düşmən və dostlara bölməmişdir, kollektivləşmə hərəkatına bir qədər müasirlik mövqeyindən yanaşmışdır. Ancaq dövrün hadisələrinin təsvirində obyektivliyi axıracan qoruyub saxlaya bilməmiş, obrazlar yenə də açıq şəkildə müsbət-mənfi qütblərinə bölünmüşdür.

Əli Vəliyevin "Turaclıya gedən yol", "Budağın xatirələri" əsərlərində də hadisələr və qəhrəmanlar ideoloji nöqteyi-nəzərdən təsvir edilirdi. Qılman Musayevin (İlkin, 1914–2009) həm "Qalada üsyan", həm də "Şimal küləyi" əsərlərində inqilabi proseslər təsvir olunur, "Şimal küləyi" romanında sovet hakimiyyətinin qurulması dövrü əks etdirilir. Həsən Seyidbəylinin (1920–1980) "Cəbhədən cəbhəyə", Əlfi Qasımovun (1927–1985) "Adilənin taleyi" romanlarında, Bayram Bayramovun (1918–1994) "Mən ki, gözəl deyildim", "Sərinlik" povestlərində, "Arakəsmələr" romanında müasir həyat hadisələri təsvir edildiyindən obrazların özü də real həyatdan götürülmüşdür. Mirzə İbrahimovun "Böyük dayaq", İsmayıl Şıxlının (1919–1995) "Ayrılan yollar" romanlarında da konflikt əvvəlki kimi iki qarşı-qarşıya duran qüvvələr arasında deyil, ailə-məişət kontesktində cərəyan edir.

Bu mərhələdə ictimai həyatla ailə-məişət məsələləri mənəvi-əxlaqi cəhətlərlə paralel təsvir olunur. Bu cəhətdən İlyas Əfəndiyevin (1914–1996) yaradıcılığı diqqəti cəlb edir. Yazıçının

bu dövrdə yazdığı romanlar təkcə üslub yeniliyi ilə fərqlənmir, həm də konfliktin yeniliyi və obrazların ideologiyadan kənar olması ilə fərqlənir. Buna qədər İ.Əfəndiyev lirik üslubdan istifadə edərək dramaturgiyaya yeni bir meyil və üslub gətirmişdi: "Söyüdlü arx" romanı ilə Sabit Rəhman və Mir Cəlalda olan satirik-lirik, Ənvər Məmmədxanlıda (1913–1990) olan lirik üslubu daha da zənginləşdirmişdir.

İ.Əfəndiyevin "Körpüsalanlar" romanında da əsərdəki obrazlar sosial mənşəyinə görə təsvir edilmir. Burada ideoloji obrazlardan da danışmaq yersizdir. Romanda dörd nəfərlik briqadanın əmək prosesi təsvir edilsə də, həqiqətdə yazıçı cəmiyyətdəki mənəvi problemi və yeni münasibətlər sistemini təsvir edir.

Beləliklə, 1950-ci illərin sonu 1960-cı illərin əvvəlləri ədəbi prosesi nəzərdən keçirdiyimizdə görürük ki, həyat həqiqətlərini yeni düşüncə ilə təsvir etmə İsa Hüseynovun (1928–2014), Sabir Əhmədovun (1930–2009), Anarın (1938), Vidadi Babanlının (1927), Sabir Azərinin (1938–2010) də əsərlərində özünü biruzə verirdi. Onlar yalnız bədii mətnə lirik üslub qatmırdılar, həm də obrazların təqdimində sərbəstliyə geniş yer verirdilər. Bu isə artıq ədəbiyyatımızda yeni bir mərhələ idi. Bu mərhələnin aparıcı simalarını isə altmışıncılar təşkil edirdi.

Dissertasiya işinin "**Nəticə**" hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Cümhuriyyət zamanı milli ruhun ən üst səviyyəyə çıxmasından sonra kommunistlərin Azərbaycanı işğal etməsilə yeni bir siyasi, tarixi, ictimai şərait yarandı, milli ruh beynəlmiləlçiliklə əvəz olundu və ədəbiyyatdan bir təbliğat maşını olaraq istifadə edildi.

2. Ədəbiyyatın yeni bir tarixi şəraitdə inkişafı zamanı onun konflikti və obrazları da dəyişildi; bədii əsərlərdə düşmən obrazları yaradıldı. Doğrudur, düşmən obrazı hələ qədim zamanlardan ictimai düşüncəyə təsir göstərən mühüm amillərdən biri olmuşdur. Lakin tarixin heç bir dönəmində heç bir zaman bədii düşüncə ideologiyaya bu qədər yaxın olmamış və bu səviyyədə onun

təbliğat vasitəsinə çevrilməmişdir.

3. İşğalın ilk günlərindən etibarən sinfi və ya ideoloji düşmən ideyası ölkənin ictimai-siyasi həyatı kimi onun ədəbiyyatının da əsas şüarlarından birinə çevrilmişdir. Sovet hakimiyyəti belə ideoloji stereotiplərdən həm öz dayaqlarını möhkəmlətmək, həm də repressiv siyasətini əsaslandırmaq üçün istifadə edirdi. Bu baxımdan ideoloji düşmən obrazları ilə mübarizə sovet hakimiyyətinin daxili və xarici siyasətində çox mühüm bir vasitəyə çevrilmişdi. Tağı Şahbazi Simürğ, Böyükağa Talıblı, Hacıbaba Nəzərli kimi yazıçıların yaradıcılığında ilk dəfə olaraq sinfi düşmən obrazları yaradılmışdır.

4. 1920-ci illərdə köhnə-yeni müstəvisində ideoloji obrazlar yaradılırdı. Köhnə dedikdə əvvəlki dövrü təmsil edənlər, yeni dedikdə isə proletariatı təmsil edənlər nəzərdə tutulurdu. Bir çox hallarda köhnəni təmsil edənlər dedikdə milli düşüncəni ifadə edənlər nəzərdə tutulurdu. Bu obrazların əksəriyyəti müsavatçı kimi qələmə verilirdi.

5. İnqilabdan əvvəlki dövrün hadisələri 1930-cu illərdə yazılan romanlarda zamanın tələbinə uyğun təqdim edilirdi. M.S.Ordubadi, Əbülhəsən, S.Rəhimov, M.Cəlal, S.Rəhman, M.Hüseyn və başqalarının roman və povestlərində həmin dövrün ictimai mənzərəsi siyasi konyunkturaya müvafiq təsvir edilirdi. Məhz ona görə də bu əsərlərdə ideoloji obrazların çəkisi daha ağır gəlirdi. XX əsrin əvvəllərində Azərbaycanda vətəndaş müharibəsinin olmamasına baxmayaraq, ermənilərin 1918-ci ildə Azərbaycanda törətdikləri qırğınlar tarixçilər tərəfindən vətəndaş müharibəsi kimi qələmə verildiyindən ədəbiyyatda da həmin hadisələr bu cür təqdim olunur və obrazlar da bu istiqamətdə yaradılırdı. Lakin yazıçılarımız sətiraltı eyhamları ilə dövrün həqiqətlərini üstüörtülü şəkildə olsa da, təqdim etməyə cəhd göstərirdilər.

6. Bütün ədəbi prosesləri tam nəzarət altına almaq məqsədilə 1934-cü ildə ədəbi təşkilatların hamısının ləğv edilərək vahid Sovet Yazıçıları İttifaqı adlı qurumda birləşdirilməsinin əsas məqsədi vahid yaradıcılıq metodu yaratmaq, müxtəliffikirliliyin qarşısını almaq, onları vahid ideologiyada birləşdirmək idi. Yazıçılar

İttifaqının qurultayında rəsmiləşdirilmiş “sosialist realizmi” adlı metoda əsasən, sovet yazıçıları da öz qələmləri ilə daxili və xarici düşmənlərlə mübarizə aparmalı idilər.

7. Ədəbi proseslərin bu dərəcədə nəzarət altına alınması və ədiblərin süni “sosialist realizmi” metodunun prinsiplərinə tabe etdirilməsi həm məzmun-ideya, həm də sənətkarlıq və orijinallıq baxımından ədəbi inkişafa mənfi təsir göstərirdi. Ancaq yazıçılar gənc nəslin “sosialist ruhunda tərbiyələndirilməsi” sahəsində partiyanın göstərişlərini yerinə yetirməyə məcbur idilər. Partiyanın göstərişlərinə tabe olmayan yazıçılar isə “burjua-millətçi” damğası ilə repressiyalara məruz qalırdılar.

8. İdeoloji düşmən obrazları zaman-zaman dəyişir və yenilənirdi; əgər 1920-ci illərdə sinfi düşmən obrazları üstünlük təşkil edirdisə, 1940-cı illərdə baxış bucağı daxili düşməndən xarici düşmənə doğru hərəkət etdi. Xarici düşmən obrazları da müxtəlif idi: almanlar, faşistlər və onların müttəfiqləri. Lakin müharibə bitdikdən bir neçə il sonra bu ideoloji düşmən obrazlarını yeniləri əvəz etməli oldu: burjuaziya, imperializm, Qərb, daha sonra NATO və başqa “düşmən ünsürlərlə” bağlı obrazlar silsiləsi yaradıldı.

9. 1920-30-cu illərdə din xadimləri, mollalar, ruhanilər də ideoloji düşmən obrazına daxil edilir və ədəbiyyatda onların mənfi obrazı yaradılırdı. Xüsusilə, M.S.Ordubadinin, Ə.Vahidin, Ə.Razinin yazdığı satirik şeirlərdə və felyetonlarda din xadimləri çox zaman öz adı və ünvanı ilə tənqid edilirdi.

10. Daxili düşmən obrazları da yaradılmaqda idi: bu obrazlar isə 1920-30-cu illərdən fərqlənirdi. İndi cəmiyyətin daxili düşmənləri kimi sovet hakimiyyətinin süqutunu gözləyən mühəndis, yazıçı, sənətkar, professor, gizli ziyanvericilər, böhtançı, antisovet ünsürlər kimi ideoloji obrazların yaradılması nəzərdə tutulurdu.

11. Ədəbi prosesi izləyən ədəbi tənqid də əsərlərin təhlili zamanı məsələyə ideoloji mövqedən yanaşır və mənfi obrazları “ideoloji düşmən” olaraq xarakterizə edirdi.

12. Bu dövrdə və sonrakı onilliklərdə sosialist realizmi metodunun prinsipləri təkcə bədii yaradıcılıq sahəsində deyil, ədəbi

tənqiddə də hakim mövqedə idi. Tənqidçi və ədəbiyyatşünaslar qarşısında "ayıq-sayıq olmaq", partiya və sosialist realizmi metodunun tələblərinin pozulduğu əsərləri müəyyənləşdirmək və onları ifşa etmək vəzifəsi qoyulmuşdu.

13. Bütün bu təzyiq və sıxıntılara baxmayaraq, istedadlı sənətkarlar, xüsusilə də lirik şairlər ümumbəşəri ideyalara əsaslanan həqiqi sənət əsərləri də yarada bilirdilər. Ancaq böyük şair və yazıçılar belə öz yaradıcılığında sovet həyatını, kommunizm quruculuğunu və sovet rəhbərlərini mədh edən əsərlər də yaratmağa məcbur idilər.

14. Sərt partiya nəzarəti 1950-ci illərin ortalarınadək davam edirdi. Ancaq Stalinin ölümündən sonra ölkənin ictimai-siyasi həyatının digər sahələrində olduğu kimi, bədii ədəbiyyat sahəsində də müəyyən yumşalmalar başladı. 1960-cı illərin əvvəlindən sənətə gələn gənc yazıçıların əsərləri sübut etdi ki, müasir həyatın istənilən hadisəsini sosialist realizmi metodunun prinsiplərini nəzərə almadan da təsvir etmək olar.

15. Bəzi əsərlərdə ideoloji düşmən obrazları sırasına daşnaklar da qatılırdı. Ancaq bu obrazlar müsavatçı obrazlarına bərabər tutulur, onların ölkədə vətəndaş müharibəsi yaratması təsvir edilirdi. Daşnakların ən böyük obrazı Ə.Abbasovun "Zəngəzur" romanında yaradılmışdı.

16. 1960-cı illərdən etibarən bədii yaradıcılıq və ədəbi tənqid sahəsində sosialist realizmi metodunun təsirləri xeyli zəifləsə də, ədəbiyyat nəzəriyyəsinə dair yazılmış dərsliklərdə hələ də sovet ədəbiyyatının əsas yaradıcılıq metodu kimi təqdim edilirdi. Ancaq 1991-ci ildə SSRİ-nin siyasi sistem kimi çökməsindən, dövlət olaraq ömrünü sona yetirməsindən sonra sosialist realizmi də özünü doğrultmayan bir yaradıcılıq metodu kimi tamamilə gündəmdən çıxdı və tarixi bir ədəbi-bədii-nəzəri fakta çevrildi.

**Dissertasiya işinin əsas nəzəri müddəaları aşağıdakı elmi məqalələrdə və elmi-praktik konfransların materiallarında öz əksini tapmışdır:**

1. Sovet ədəbiyyatında ideoloji düşmən obrazlarının yaranmasını şərtləndirən amillər // "Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları" ak. V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfrans. AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – Bakı: – 27-28 iyun, – 2013, – s.322-323.
2. Sovet ədəbiyyatında sosialist realizmi metodu və onun doğurduğu ideoloji düşmən obrazı // – Bakı: Risalə, – 2014. №10, – s.92-97.
3. Творчество Гусейна Джавида в источниках 1920–1930-х годов // XXVIII Международная научная конференция по источниковедению и историографии стран Азии и Африки «Азия и Африка в меняющемся мире» Тезисы докладов, – Санкт-Петербург: – 22-24 апреля, – 2015, – с.95-96.
4. Sovet ədəbiyyatında "ideoloji düşmən" obrazını formalaşdıran sosial-siyasi amillər // – Bakı: Risalə, – 2016. №12, – s.131-136.
5. Sovet ideologiyası və Hüseyn Cavid // "Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr" (Hüseyn Cavid-135) Beynəlxalq Elmi Konfrans. AMEA və Hüseyn Cavidin Ev Muzeyi, – Bakı: – 13 dekabr, – 2017, – s.106-107.
6. M.S.Ordubadi yaradıcılığında tarixi hadisələrə ideoloji yanaşmalar // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2020. №2, – s.117-123.
7. 1920-1930-cu illər Azərbaycan ədəbiyyatında din və din xadimləri ideoloji düşmən obrazında // – Bakı: Filologiya məsələləri, –2020. № 12, – s.331-340.
8. XX əsrin 20-30-cu illər ədəbi tənqidinin ədəbiyyatı dəyərləndirməsində ideoloji meyarlar // "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" adlı beynəlxalq konfrans. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, –

Bakı: – 23-25 dekabr, –2020, – s.140-141.
9. 1920-30-cu illərdə dramaturgiyada sinfi mübarizənin ideoloji inikası: qolçomaq obrazı // – Bakı: Risalə. – 2021. №1(20), – s.105-114.
10. Mir Cəlalın "Dirilən adam" və "Bir gəncin manifesti" əsərlərində vətəndaş müharibəsinin əksi // "Qarabağ" - Beynəlxalq Sosial-dünyəvi Elmlərdə Modern Araşdırmalar Konqresi, – Bakı: – 17-19 iyun, – 2021. K.1, – s.464-467.
11. Poeziyada tarixi gerçəklik ideoloji düşmən obrazları kontekstində // 15. Uluslararası Türk sanatı, tarihi ve folkloru kongresi / Sanat Etkinlikleri. – Konya: – 21-23 iyun, – 2021, – s.203-206.
12. Azərbaycan ədəbiyyatında vətəndaş müharibəsi ideoloji kontekstdə // – Bakı: Əlyazmalar yanmır, – 2022. №1(14), – s.54-60.
13. Əbülhəsən yaradıcılığında sinfi düşmən obrazları // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2022. №1, – s.77-85.
14. Köhnə və yeni məfkurə müstəvisində ideoloji obrazlar // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, –2022. №3, – s.22-35.
15. Усиление идеологического давления на литературу в послевоенный период // Proceedings of the 6th International Scientific and Practical Conference «Current Issues and Prospects for the Development of Scientific Research». – Orléans, France: – 2022. – c.154-159.
16. İlyas Əfəndiyev yaradıcılığında milli ruhun əksi // – Bakı: Filologiya və sənətşünaslıq, – 2023. №2, – s.92-97.
17. 60-cı illər bədii düşüncəsində yeni ideoloji təmayüllər // – Bakı: Filologiya məsələləri, – 2023. №10, – s.400-406.
18. Tarixi həqiqət və bədii gerçəklik // – Bakı: Risalə, – 2023. №2(25), – s. 51-56.
19. Reflection of the ideological struggle in the literary process during the second world war // – Ukraina: Вісник науки та освіти, – 2023. №3(9), – p.15-25.
20. Theoretical views of the critic Ali Nazim on literary process of the 1920-1930s in Azerbaijan // – Türkiye: "TURAN-

Uluslararası Bilimsel Hakemli Dergi, – 2023. №59, – p.180-184.

21. İnfluence of soviet ideology on literature // – Poland: Colloquium-journal, – 2024. №11(204), – p.46-49.
22. Attitudes towards the Azerbaijani literary process in literary studies of the period 1920s-30s // – Kuba: Revista Universidad y Sociedad, – 2024. Vol.16, №1, – p.246-251.

Dissertasiyanın müdafiəsi 16 oktyabr 2025-ci il tarixində saat 14 $^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.09.2025

Kağızın formatı: A5

Həcm: 82 467

Tiraj: 100